*Bizim Xəzər Dəniz Gəmiçiliyinin donanması Azərbaycanın çox böyük sərvətidir. O, böyük işlər görür və gələcəkdə də görəcəkdir.*
*Heydər ƏLİYEV*

# DƏNİZ

"AZƏRBAYCAN XƏZƏR DƏNİZ GƏMİÇİLİYİ" QSC-nin qəzeti

20 iyul 2018-ci il | № 53-56 (9239) | Qəzet 1931-ci ildən nəşr olunur | www.seanews.az | Qiyməti 50 qəpik

## BU SAYIMIZDA

### Gəmiçilikdə "Təhlükəsizlik günü" keçirilib



***"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətində "Təhlükəsizlik günü" keçirilib.***

Tədbirdə son altı ayda Azərbaycan Xəzər Dəniz Gəmiçiliyində qeydə alınan qəzalar, yan ötmüş hadisələr, daxili audit və monitorinqlər barədə danışılıb.

Səh. 2

### Azərbaycanda xalq-iqtidar birliyini heç bir qüvvə sarsıda bilməz

*Gəncədə sabitliyi pozmağa çalışanların hədəfində təkcə Gəncə və gəncəlilər deyildi*



***İyulun 10-da Gəncə şəhərində baş verənlərdən xəbər tutanda çox məyus oldum və uzun müddət özümə gələ bilmədim.***

Səh. 3

### Azərbaycan gəmiləri Xəzərin Rusiya sektorunda dibdərinləşdirmə işləri görür



*"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin Xəzər Dəniz Neft Donanmasına məxsus bir sıra gəmiləri "Voltar Marine" şirkətinin sifarişi əsasında "Filanovski" yatağında dibdərinləşdirmə işləri yerinə yetirir.*

Səh. 4

### Gəmiçilik ətraf mühitə zərər vurulmaması üçün qabaqlayıcı tədbirlər görür



***"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC ətraf mühitə zərər vurulmaması üçün qabaqlayıcı tədbirlər görür.***

Ətraf mühitin qorunması Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi üçün əsas davamlı inkişaf meyarlarından biridir.

Səh. 5

AZƏRBAYCAN XƏZƏR DƏNİZ GƏMİÇİLİYİ - 160

### Bir çox məsələləri yerindəcə həll edirdi



***Mustafa İmam Əli 1905-ci ildə Bakıda ziyalı ailəsində anadan olub.***

Səh. 6

### Yelkənli İdman Federasiyasının yelkənçiləri Azərbaycanı Avropa çempionatında uğurla təmsil ediblər



***Haaqada Sxeveningen dəniz limanında "Optimist" sinfi üzrə Avropa çempionatı keçirilib. İyunun 23-dən 30-dək Optimist Avropa Çempionatı mükəmməl yelkən şəraitində baş tutub.***

Səh. 8

# "Azərbaycan Respublikasının dövlət sərhədi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikasının Qanunu



Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 21-ci bəndini rəhbər tutaraq **qərara alır:**

"Azərbaycan Respublikasının dövlət sərhədi haqqında" Azərbaycan Respublikası Qanununda (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1992, № 1, maddə 1; 1995, № 17-18, maddə 282; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 7, maddə 444; 2004, № 2, maddə 57, № 4, maddə 199; 2008, № 10, maddə 886; 2011, № 2, maddə 71; 2013, № 2, maddə 95; 2016, № 1, maddələr 14, 19; 2017, № 4, maddə 518) aşağıdakı dəyişikliklər edilsin:

1. 2-ci maddənin birinci hissəsində "Ali Sovetinin" sözləri "Milli Məclisinin" sözləri ilə əvəz edilsin.

2. 5-ci maddənin 1-ci bəndi aşağıdakı redaksiyada verilsin:

"1) Azərbaycan Respublikasının öz quru ərazisinə və daxili sularına bitişik və onun suverenliyi altında olan dəniz zolağı (səthi, dibi, təki, üzərindəki hava məkanı). Ərazi sularının eni Xəzər dənizinin hüquqi statusuna dair beynəlxalq müqavilə ilə müəyyən olunur;".

3. 9-cu maddə üzrə:

3.1. birinci hissə aşağıdakı redaksiyada verilsin:

"Dəmiryolu və avtomobil nəqliyyatı vasitələri Azərbaycan Respublikasının dövlət sərhədini yalnız dövlət sərhədindən buraxılış məntəqələrindən keçə bilər. Azərbaycan Respublikasının dövlət sərhədindən buraxılış məntəqələrinin sayı, yerləşdiyi ərazi, həmin məntəqələrdə işin təşkili və əlaqələndirilməsi qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir. Azərbaycan Respublikasının dövlət sərhədindən buraxılış məntəqələrində sərhəd nəzarəti məntəqələri və gömrük idarələri (postları) yaradılır.".

3.2. aşağıdakı məzmunda ikinci hissə əlavə edilsin:

"Dəniz, çay, hava nəqliyyatı vasitələrinin Azərbaycan Respublikasının dövlət sərhədindən keçməsinin hüquqi əsasları bu Qanunla müəyyən edilir.".

4. 10-cu maddənin birinci hissəsində "sərhəd qoşunlarının nəzarət-buraxılış məntəqələri və gömrük idarələri (postları)" sözləri "Azərbaycan Respublikasının dövlət sərhədindən buraxılış məntəqələri" sözləri ilə əvəz edilsin.

5. 11-ci maddə üzrə:

5.1. birinci hissənin ikinci cümləsi ləğv edilsin;

5.2. ikinci hissədə "qoşunlarının nəzarət-buraxılış" sözləri "nəzarəti" sözü ilə əvəz edilsin.

6. 12-ci maddə üzrə:

6.1. birinci və üçüncü hissələrdə "sərhəd qoşunları" sözləri "sərhəd mühafizə orqanları" sözləri ilə əvəz edilsin;

6.2. ikinci hissənin birinci və ikinci cümlələrində "sərhəd qoşunlarının" sözləri "sərhəd mühafizə orqanlarının" sözləri ilə əvəz edilsin;

6.3. beşinci hissədə "Azərbaycan Respublikası dövlət sərhədinin" sözləri "Azərbaycan Respublikasının dövlət sərhədindən" sözləri ilə əvəz edilsin.

7. 18-ci maddənin ikinci hissəsində "sərhəd qoşunları" sözləri "müvafiq icra hakimiyyəti orqanı" sözləri ilə əvəz edilsin.

8. 21-ci maddə üzrə:

8.1. birinci hissədə "sərhəd qoşunlarının" sözləri "öz" sözü ilə əvəz edilsin;

8.2. ikinci hissədə "sərhəd qoşunlarının" sözləri "sərhəd mühafizə orqanlarının" sözləri ilə əvəz edilsin.

9. 22-ci maddənin dördüncü hissəsinin ikinci cümləsində "sərhəd qoşunlarının" sözləri "müvafiq icra hakimiyyəti orqanının" sözləri ilə əvəz edilsin.

10. 23-cü maddədə "gəmilərin" sözü "üzmə vasitələrinin" sözləri ilə əvəz edilsin.

11. 24-cü maddə üzrə:

11.1. 5-ci bənddə:

11.1.1. birinci abzasın birinci cümləsində "sərhəd qoşunlarının" sözləri "sərhəd mühafizə orqanlarının" sözləri ilə, ikinci cümləsində "sərhəd qoşunları" sözləri "müvafiq icra hakimiyyəti orqanı" sözləri ilə əvəz edilsin;

11.1.2. ikinci abzasda "sərhəd qoşunları bölmələrinə" sözləri "sərhəd mühafizə orqanlarına" sözləri ilə əvəz edilsin;

11.2. 14-cü bəndin birinci cümləsində "sərhəd qoşunları" sözləri "müvafiq icra hakimiyyəti orqanı" sözləri ilə, ikinci cümləsində "sərhəd qoşunlarının" sözləri "sərhəd mühafizə orqanlarının" sözləri ilə əvəz edilsin;

11.3. 15-ci bənddə birinci halda "sərhəd qoşunlarının" sözləri "sərhəd mühafizə orqanlarının" sözləri ilə, ikinci halda "sərhəd qoşunlarının" sözləri "müvafiq icra hakimiyyəti orqanının" sözləri ilə əvəz edilsin.

12. 25-ci maddə üzrə:

12.1. 1-ci bənddə "sərhəd qoşunları" sözləri "sərhəd mühafizə orqanları" sözləri ilə əvəz edilsin;

12.2. aşağıdakı məzmunda 1-1-ci bənd əlavə edilsin:

"1-1) Xəzər dənizinin Azərbaycan Respublikasına mənsub olan bölməsində sərhəd mühafizə orqanları tərəfindən sərhədboyu rejim təmin olunur.";

12.3. 2-ci bənddə:

12.3.1. birinci abzas aşağıdakı redaksiyada verilsin:

"Azərbaycan Respublikasının Ticarət Gəmiçiliyi Məcəlləsinə uyğun olaraq müvafiq icra hakimiyyəti orqanında qeydiyyata alınmış balıqçılıq, ovçuluq, elmi-tədqiqat, idman gəmiləri, mühərrikli və mühərriksiz digər üzmə vasitələri sərhədboyu zonanın, habelə dəniz sahilinə bitişik inzibati ərazi vahidlərinin ərazisində olduqda, sərhəd mühafizə orqanlarının ən yaxın bölməsində də qeydiyyata alınmalıdır. Sərhəd mühafizə orqanları tərəfindən üzmə vasitələrinə "Üzmə vasitəsinin qeydiyyat vəsiqəsi" verilir;";

12.3.2. ikinci abzasda "gəmilər" sözü "üzmə vasitələri" sözləri ilə, "yanalma" sözü "yanalma-dayanma" sözləri ilə əvəz edilsin;

12.3.3. üçüncü abzasda "gəmilərin" sözü "üzmə vasitələrinin" sözləri ilə əvəz edilsin;

12.3.4. aşağıdakı məzmunda dördüncü abzas əlavə edilsin:

"bu bənddə nəzərdə tutulmuş tələblər Hərbi-Dəniz Qüvvələrinin istifadəsində olan üzmə vasitələrinə, habelə Azərbaycan Respublikasının Ticarət Gəmiçiliyi Məcəlləsinə uyğun olaraq müvafiq icra hakimiyyəti orqanı tərəfindən Dövlət Gəmi Reyestrində qeydiyyata alınan gəmilərə şamil edilmir. Dövlət Gəmi Reyestrində qeydiyyata alınan gəmilər üzərində sərhəd nəzarəti həyata keçirilərkən "Gəmi heyəti üzvlərinin siyahısına" ştamp vurulur.";

12.4. 3-cü bənddə "sərhəd qoşunları" sözləri "sərhəd mühafizə orqanları" sözləri ilə, "sərhəd qoşunlarının" sözləri "sərhəd mühafizə orqanlarının" sözləri ilə əvəz edilsin;

12.5. 4-cü bənddə "gəmilərin" sözü "üzmə vasitələrinin" sözləri ilə əvəz edilsin;

12.6. 5-ci bənddə "gəmilərin" sözü "üzmə vasitələrinin" sözləri ilə, "gəmilər" sözü "üzmə vasitələri" sözləri ilə, "sərhəd qoşunlarının" sözləri "müvafiq icra hakimiyyəti orqanının" sözləri ilə əvəz edilsin;

12.7. 6-cı bənddə "sərhəd qoşunlarının" sözləri "müvafiq icra hakimiyyəti orqanının" sözləri ilə əvəz edilsin;

12.8. 7-ci bəndin birinci abzasında "gəmilərdə" sözü "üzmə vasitələrində" sözləri ilə, "sərhəd qoşunlarının" sözləri "sərhəd mühafizə orqanlarının" sözləri ilə əvəz edilsin;

12.9. 8-ci bənddə "sərhəd qoşunlarının" sözləri "sərhəd mühafizə orqanlarının" sözləri ilə, "sərhəd qoşunları" sözləri "müvafiq icra hakimiyyəti orqanı" sözləri ilə əvəz edilsin;

12.10. 9-cu bəndin birinci cümləsində "sərhəd qoşunları" sözləri "sərhəd mühafizə orqanları" sözləri ilə əvəz edilsin.

13. 26-cı maddə üzrə:

13.1. birinci hissədə "sərhəd qoşunları nəzarət-buraxılış" sözləri "yerləşən sərhəd nəzarəti" sözləri ilə əvəz edilsin;

13.2. ikinci hissənin ikinci cümləsində "sərhəd qoşunları və daxili işlər orqanları" sözləri "müvafiq icra hakimiyyəti orqanı" sözləri ilə əvəz edilsin;

13.3. üçüncü hissədən "qoşunları" sözü çıxarılsın.

14. 27-ci maddənin ikinci hissəsinin birinci cümləsində "sərhəd qoşunlarına" sözləri "sərhəd mühafizə orqanlarına" sözləri ilə, ikinci cümləsində "Sərhəd qoşunları" sözləri "Sərhəd mühafizə orqanları" sözləri ilə əvəz edilsin.

15. 28-ci maddə üzrə:

15.1. adında "Sərhəd qoşunlarının" sözləri "Sərhəd mühafizə orqanlarının" sözləri ilə əvəz edilsin;

15.2. mətnində "sərhəd qoşunlarının" sözləri "sərhəd mühafizə orqanlarının" sözləri ilə, "Sərhəd qoşunları" sözləri "Sərhəd mühafizə orqanları" sözləri ilə əvəz edilsin.

16. 30-cu maddə üzrə:

16.1. adında "sərhəd qoşunlarının" sözləri "sərhəd mühafizə orqanlarının" sözləri ilə əvəz edilsin;

16.2. birinci hissədə:

16.2.1. birinci abzasda "qorunması" sözü "mühafizəsi" sözü ilə, "sərhəd qoşunlarının" sözləri "müvafiq icra hakimiyyəti orqanının" sözləri ilə əvəz edilsin;

16.2.2. 2-ci bənddə "gəmiyə təklif etmək" sözləri "gəmidən tələb etmək" sözləri ilə əvəz edilsin.

17. 31-ci maddə üzrə:

17.1. adında, birinci hissənin birinci abzasında və 8-ci bəndində, ikinci hissənin birinci və ikinci cümlələrində "sərhəd qoşunları" sözləri "sərhəd mühafizə orqanları" sözləri ilə əvəz edilsin;

17.2. üçüncü hissədə "Sərhəd qoşunları" sözləri "Sərhəd mühafizə orqanları" sözləri ilə əvəz edilsin.

18. 32-ci maddə üzrə:

18.1. birinci hissədə "sərhəd qoşunlarının" sözləri "sərhəd mühafizə orqanlarının" sözləri ilə əvəz edilsin;

18.2. ikinci hissənin ikinci cümləsində "sərhəd qoşunlarının" sözləri "sərhəd mühafizə orqanının nümayəndəsinin" sözləri ilə əvəz edilsin.

19. 36-cı maddənin birinci cümləsində "Sərhəd qoşunları" sözləri "Sərhəd mühafizə orqanları" sözləri ilə əvəz edilsin.

20. 37-ci maddə üzrə:

20.1. adında "Sərhəd qoşunlarının" sözləri "Sərhəd mühafizə orqanlarının" sözləri ilə əvəz edilsin;

20.2. 1-ci bənddə:

20.2.1. birinci abzasda "Sərhəd qoşunları" sözləri "Sərhəd mühafizə orqanları" sözləri ilə əvəz edilsin və həmin abzasa aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Müdafiə haqqında" və "Sərhəd mühafizə orqanları haqqında" Azərbaycan Respublikasının qanunlarında nəzərdə tutulmuş qaydada sərhəd mühafizə orqanları Azərbaycan Respublikasının müdafiəsi işinə və ərazi müdafiəsinə cəlb olunduğu zaman onlar tərəfindən silah və döyüş texnikası döyüş təlimatlarına əsasən tətbiq edilir.";

20.2.2. ikinci abzasda "Sərhəd qoşunları" sözləri "Sərhəd mühafizə orqanları" sözləri ilə əvəz edilsin;

20.2.3. yeddinci və səkkizinci abzaslarda "sərhəd qoşunlarının" sözləri "sərhəd mühafizə orqanlarının" sözləri ilə əvəz edilsin;

20.2.4. onuncu abzasda "Sərhəd qoşunlarının" sözləri "Sərhəd mühafizə orqanlarının" sözləri ilə əvəz edilsin;

20.3. 2-ci bəndin birinci abzasında "sərhəd qoşunlarının" sözləri "sərhəd mühafizə orqanlarının" sözləri ilə əvəz edilsin;

20.4. 3-cü bəndin birinci abzasında və "a" yarımbəndində "sərhəd qoşunlarının" sözləri "sərhəd mühafizə orqanlarının" sözləri ilə əvəz edilsin;

20.5. 4-cü bənddə "sərhəd qoşunları" sözləri "sərhəd mühafizə orqanları" sözləri ilə əvəz edilsin;

20.6. 5-ci bənddə "donanması" sözü "qüvvələri" sözü ilə, "sərhəd qoşunlarına" sözləri "sərhəd mühafizə orqanlarına" sözləri ilə əvəz edilsin;

20.7. 7-ci bənddə:

20.7.1. birinci abzasda "sərhəd qoşunlarının" sözləri "sərhəd mühafizə orqanlarının" sözləri ilə əvəz edilsin;

20.7.2. "q" yarımbəndində "sərhəd qoşunları" sözləri "sərhəd mühafizə orqanları" sözləri ilə, "sərhəd qoşunlarının" sözləri "sərhəd mühafizə orqanlarının" sözləri ilə əvəz edilsin.

21. 37-1-ci maddə üzrə:

21.1. adında "Sərhəd qoşunları" sözləri "Sərhəd mühafizə orqanları" sözləri ilə əvəz edilsin;

21.2. mətnində (hər iki halda) "Sərhəd qoşunlarının" sözləri "Sərhəd mühafizə orqanlarının" sözləri ilə əvəz edilsin.

22. 38-ci maddənin birinci və ikinci hissələrində "sərhəd qoşunlarına" sözləri "sərhəd mühafizə orqanlarına" sözləri ilə əvəz edilsin.

23. 39-cu maddə üzrə:

23.1. ikinci hissədə "sərhəd qoşunları" sözləri "sərhəd mühafizə orqanları" sözləri ilə əvəz edilsin;

23.2. aşağıdakı redaksiyada üçüncü hissə əlavə edilsin:

"Azərbaycan Respublikasının dövlət sərhədini, sərhəd rejimini, sərhədboyu rejimi və ya dövlət sərhədindən buraxılış məntəqələrində rejimi pozmaqla törədilən hüquq pozuntuları ilə əlaqədar əməliyyat-axtarış fəaliyyətinin subyektləri tərəfindən həyata keçirilən xüsusi əməliyyatlar sərhəd mühafizə orqanları ilə razılaşdırılır.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

Bakı şəhəri, 12 iyun 2018-ci il.

## "Azərbaycan Respublikasının dövlət sərhədi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 12 iyun tarixli 1181-VQD nömrəli Qanununun tətbiqi haqqında

# Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının dövlət sərhədi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 12 iyun tarixli 1181-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Azərbaycan Respublikasının dövlət sərhədi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. "Azərbaycan Respublikasının dövlət sərhədi haqqında" Azərbaycan Respublikası Qanununun 9-cu maddəsinin birinci hissəsinin ikinci cümləsinə uyğun olaraq, Azərbaycan Respublikasının dövlət sərhədindən buraxılış məntəqələrinin sayını, yerləşdiyi əraziləri, həmin məntəqələrdə işin təşkili və əlaqələndirilməsi qaydalarını üç ay müddətində Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla müəyyən etsin;

1.3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının "Azərbaycan Respublikasının dövlət sərhədi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

***(Davamı 2-ci səhifədə)***

(Əvvəli 1-ci səhifədə)

## "Azərbaycan Respublikasının dövlət sərhədi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 12 iyun tarixli 1181-VQD nömrəli Qanununun tətbiqi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

1.4. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.5. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Azərbaycan Respublikasının dövlət sərhədi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

3. Müəyyən edilsin ki:

3.1. "Azərbaycan Respublikasının dövlət sərhədi haqqında" Azərbaycan Respublikası Qanununun 9-cu maddəsinin birinci hissəsinin ikinci cümləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;

3.2. həmin Qanunun 18-ci maddəsinin ikinci hissəsində, 22-ci maddəsinin dördüncü hissəsinin ikinci cümləsində, 24-cü maddəsinin 5-ci bəndinin birinci abzasının ikinci cümləsində və 14-cü bəndinin birinci cümləsində, 15-ci bəndində, 25-ci maddəsinin 5-ci, 6-cı və 8-ci bəndlərində, 30-cu maddəsinin birinci hissəsinin birinci abzasında nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti həyata keçirir;

3.3. həmin Qanunun 25-ci maddəsinin 2-ci bəndinin birinci abzasının birinci cümləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi həyata keçirir;

3.4. həmin Qanunun 25-ci maddəsinin 2-ci bəndinin dördüncü abzasının birinci cümləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Dövlət Dəniz Agentliyi həyata keçirir;

3.5. həmin Qanunun 26-cı maddəsinin ikinci hissəsinin ikinci cümləsində (ikinci halda) nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi və Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti həyata keçirirlər.

4. Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***

***Azərbaycan Respublikasının Prezidenti***

Bakı şəhəri, 18 iyul 2018-ci il.

# Gəmiçilikdə "Təhlükəsizlik günü" keçirilib













***"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətində "Təhlükəsizlik günü" keçirilib.***

Tədbirdə son altı ayda Azərbaycan Xəzər Dəniz Gəmiçiliyində qeydə alınan qəzalar, yan ötmüş hadisələr, daxili audit və monitorinqlər barədə danışılıb. Bununla yanaşı, dünya gəmiçiliyində baş verən hadisələrə nəzər salınıb, onların səbəblərindən bəhs olunub.

Tədbirdə Keyfiyyət, sağlamlıq, əməyin təhlükəsizliyi və ətraf mühitin mühafizəsi departamentinin rəisi Ələkbər Əzizli geniş məruzə ilə çıxış edib. O, Gəmiçilikdə təhlükəsizlik məsələlərinin hər zaman xüsusi diqqətdə saxlandığını deyib. Bildirib ki, AXDG-də təhlükəsizliklə bağlı sərt tələblər mövcuddur və bu tələblərə hər bir əməkdaş əməl etməlidir.

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin sədri Rauf Vəliyev çıxışında təhlükəsizlik mədəniyyətinin daha da inkişaf etdirilməsinin vacibliyini önə çəkib. Diqqətə çatdırıb ki, bununla bağlı bütün heyət çalışmalı, daha çox öyrənməli və öz təcrübəsini digərləri ilə bölüşməlidir. Çünki təhlükəsiz iş şəraitini təmin etmək əsas vəzifələrimizdəndir.

Bununla belə, Rauf Vəliyev aidiyyəti struktur rəhbərlərinə treninq və məşğələlərin davamlı və daha praktik keçirilməsi ilə bağlı tapşırıqlarını verib.

Toplantıda baş verə biləcək hadisələrin qarşısını almaq üçün hazırlanan maarifləndirici videoçarxlar nümayiş olunub, qarşıdakı hədəflər kimi məsələlərə diqqət yetirilib.

## "Xəzər dənizi ixracatının inkişafı"

***İyulun 11-də İranın Mazandaran vilayətinin mərkəzi Sari şəhərində "Xəzər dənizi ixracatının inkişafı" üzrə beynəlxalq konfrans keçirilib. Konfransda Azərbaycan, Tacikistan, Rusiya, Türkmənistan, Qazaxıstan, Gürcüstan, Əfqanıstan və Hindistandan gəlmiş nümayəndələr iştirak ediblər.***

Beynəlxalq konfrans çərçivəsində Xəzəryanı ölkələrin iqtisadi əlaqələrinin dəniz vasitəsilə genişləndirilməsi məsələləri müzakirə edilib.

İranın Xəzər sahilindəki Bəndər Əmrəbad Xüsusi İqtisadi Zonasının limanlar və dənizçilik üzrə direktoru Siyavuş Rezvani konfransın açılışında deyib ki, Xəzəryanı dövlətlərin dəniz vasitəsilə ixracatı artırmaları hər bir ölkənin iqtisadiyatında yeni sahənin inkişafına təkan verəcək.

Onun sözlərinə görə, bu beynəlxalq konfrans Xəzəryanı ölkələrə dəniz ixracatının genişlənməsi imkanlarının və problemlərin araşdırılması məqsədilə keçirilib.

Xatırladaq ki, İran Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizinə daxil olan Bəndər Əmirəbad limanı ilə idxal-ixrac əməliyyatlarını həyata keçirir.

## Məhəmməd Rastad: "Azərbaycan Xəzəryanı ölkələr arasında ən müasir liman infrastrukturuna malik olan dövlətdir"

***İran iqtisadiyyatında həyata keçirilən idxal-ixrac əməliyyatlarında Azərbaycan tranzit ölkə kimi mühüm əhəmiyyət daşıyır.***

Bu sözləri İranın Sari şəhərində keçirilən "Xəzər dənizi vasitəsilə ixracatın inkişafı" adlı Beynəlxalq konfransda çıxış edən yol və şəhərsalma nazirinin müavini, İran dənizçilik və limanlar təşkilatının direktoru Məhəmməd Rastad deyib. Onun sözlərinə görə Azərbaycan Xəzəryanı ölkələr arasında ən müasir liman infrastrukturuna malik olan dövlətdir.

M.Rastad nəzərə çatdırıb ki, İran Gürcüstanla həyata keçirdiyi ixrac-idxal əməliyyatlarında Azərbaycan önəmli rol oynayır. İran malları Azərbaycan üzərindən Gürcüstana ixrac edilir və bu hər iki dövlətin maraqlarına uyğundur. Dövlətlər arasındakı iqtisadi əlaqələrin inkişafında nəqliyyatın mühüm yer tutduğunu qeyd edən M.Rastad Azərbaycanın nəqliyyat sahəsində probleminin olmadığını bildirib.

Xatırladaq ki, beynəlxalq konfrans çərçivəsində Xəzəryanı ölkələrin dəniz vasitəsi ilə iqtisadi əlaqələrinin genişləndirilməsi məsələləri müzakirə edilib. Konfrans Xəzəryanı ölkələrdə dəniz vasitəsilə ixrac-idxal əməliyyatlarının genişlənməsi imkanlarının və problemlərin araşdırılması məqsədilə keçirilib.

***Rabil Kətanov***

## Axtarış işlərinə 15 gəmi cəlb olunub

***Çinin Şanxay şəhəri ərazisində sahil sularında yük gəmisinin aşması nəticəsində 10 nəfər itkin düşüb.***



Hadisə səhər erkən saatlarda 3 min ton polad material daşıyan "Shunqiang 2" gəmisinin başqa bir gəmi ilə toqquşması nəticəsində baş verib. Hadisə baş verən zaman gəmidə 13 heyət üzvü olub. Onlardan hələlik üçü xilas edilib.

Hazırda hadisə yerində axtarış işləri davam etdirilir. Axtarış işlərinə 15-ə yaxın gəmi cəlb olunub.

***Şahin Cəfərov***

## Bakı-Tbilisi-Ceyhan kəməri ilə indiyədək nəql edilən neftin həcmi 400 milyon tona çatıb

***Bakı–Tbilisi–Ceyhan (BTC) əsas ixrac boru kəməri ilə bu vaxtadək nəql olunan neftin həcmi 400 milyon tona çatıb.***

Bu barədə AZƏRTAC-a eksklüziv açıqlamasında BP şirkətinin Bakı ofisinin mətbuat xidmətinin rəhbəri Tamam Bayatlı deyib.

"BTC boru kəməri ilə nəql olunan xam neftin ümumi həcmi bu gün, iyulun 10-da 400 milyon tona çatıb. Bütün bu həcmlər ümumilikdə 3 min 924 tankerə yüklənərək Ceyhan terminalından təhlükəsiz şəkildə dünya bazarına yola salınıb", - deyə T.Bayatlı bildirib.

Qeyd edək ki, istismara verildiyi 2006-cı ildə BTC ilə 57 milyon 78 min barrel neft nəql olunub. 2010-cu ildə kəmərlə illik nəqletmə ən yüksək göstəriciyə - 286 milyon 214 min barrelə çatıb. 2017-ci ildə Bakı–Tbilisi–Ceyhan boru kəməri vasitəsilə təqribən 34 milyon ton, yəni 256 milyon barrel xam neft ixrac edilib və həmin neft Ceyhan limanında 333 tankerə yüklənib. Cari ilin ilk 3 ayında isə BTC ilə təqribən 63 milyon ton və ya 8,3 milyon barrel xam neft ixrac olunub və həmin neft Ceyhan limanında 81 tankerə yüklənib. 2006-cı ilin iyunundan cari ilin birinci rübünün sonunadək BTC ilə ümumilikdə 391 milyon tondan çox, təxminən 2,93 milyard barrel xam neft nəql edilib və Ceyhan limanında 3 min 839 tankerə yüklənərək dünya bazarına göndərilib.

Hazırda BTC boru kəməri Azərbaycandan əsasən "Azəri-Çıraq-Günəşli" (AÇG) nefti və



"Şahdəniz" kondensatı daşıyır. Bundan əlavə, boru kəməri vasitəsilə digər xam neft və kondensat həcmləri də, o cümlədən Türkmənistan, Rusiya və Qazaxıstan nefti nəql olunur. Bu ilin birinci rübündə BTC üzrə əməliyyat xərclərinə təqribən 30 milyon dollar, əsaslı xərclərə isə 5 milyon dollar sərf edilib.

2003-cü il iyulun 30-da BTC-nin inşasına başlanılıb. 2006-cı il iyulun 13-də isə Türkiyənin Ceyhan şəhərində XXI əsrin ən böyük enerji layihəsi olan Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin təntənəli açılış mərasimi keçirilib.

Boru kəmərinin ümumi uzunluğu 1768 kilometrdir. Respublikamızın 13 rayonundan - Qaradağ, Abşeron, Hacıqabul, Ağsu, Kürdəmir, Ucar, Ağdaş, Yevlax, Goranboy, Samux, Şəmkir, Tovuz və Ağstafadan keçən kəmərin Azərbaycan hissəsinin uzunluğu 443 kilometrdir. Qalan 249 kilometr Gürcüstanın, 1076 kilometr isə Türkiyənin ərazisindən keçir. Boru kəmərinin Azərbaycan və Gürcüstanda yerləşən hissələrinin operatoru "BTC Ko."nun səhmdarları adından BP, Türkiyədə yerləşən hissəsinin operatoru isə "Botaş International Limited" şirkətləridir. Kəmərin diametri Azərbaycanda və Türkiyədə, əsasən 42 düyümlükdür. Gürcüstan ərazisində kəmər 46 düyümlük borularla çəkilib. Türkiyədə Ceyhan dəniz terminalına enən sonuncu eniş boyu hissədə isə 34 düyümlüyədək azalır. Boru kəməri 1500-dən çox çay və 13 seysmik qırılma xətti ilə kəsişir. Kəmərin ən yüksək nöqtəsi 2 min 800 metr olan dağlardan keçdiyi yerdir ki, bundan sonra o, Ceyhanda yenidən dəniz səviyyəsinə enir.

Kəmərin istismar müddəti 40 il, orta ötürücülük qabiliyyəti isə sutkada 1,2 milyon barrel nəzərdə tutulub. Səngəçal terminalından Türkiyənin Aralıq dənizi sahilindəki Ceyhan terminalınadək uzanan kəmərin çəkilməsinə təxminən 4,5 milyard dollar vəsait xərclənib. Hazırda kəmər vasitəsilə ildə 60 milyon ton neft nəql etmək mümkündür.

"BTC Ko."nun səhmdarları belədir: BP (30,1 faiz), "AzBTC" (25 faiz), "Chevron" (8,9 faiz), "Equinor" (əvvəlki "Statoil") (8,71 faiz), TPAO (6,53 faiz), "Eni" (5 faiz), "Total" (5 faiz), "Itochu" (3,4 faiz), "Inpex" (2,5 faiz), "ExxonMobil" (2,5 faiz) və "ONGC (BTC) Limited" (2,36 faiz).

## Dənizlə Avropaya keçən miqrant və qaçqınların sayı 50 min nəfəri ötüb



***Bu ilin əvvəlindən bəri Aralıq dənizi ilə Avropaya keçən miqrant və qaçqınların sayı 50 min nəfəri ötüb. Habelə 1440 miqrant ölüb və ya itkin düşüb. Bu barədə Beynəlxalq Miqrasiya Təşkilatı məlumat yayıb.***

TASS informasiya agentliyinə istinadla xəbər verir ki, təşkilatın rəsmi nümayəndəsi Coel Millman Cenevrədə keçirilən brifinqdə Avropaya gələn miqrant və qaçqınların təxminən 35 faizinin İtaliya və İspaniya, 29 faizinin Yunanıstan tərəfindən qəbul edildiyini bildirib. Xatırladıb ki, keçən ilin müvafiq dövründə Aralıq dənizi ilə Avropaya 110 min miqrant, 2016-cı ildə isə 242 min miqrant keçib.

C.Millman İspaniyaya gedən miqrant və qaçqınlarının sayının kəskin artmasına da diqqət yetirib. Qeyd edib ki, ilin əvvəlindən bu ölkəyə 18 min 16 nəfər miqrant və qaçqın gəlib. Bundan başqa, 2874 miqrant Seuta və Melilyaya keçməyə cəhd göstərib.

Beynəlxalq Miqrasiya Təşkilatının məlumatına görə, ilin əvvəlindən 2186 miqrant və qaçqın həlak olub. Bununla belə Aralıq dənizi Avropaya miqrasiyada ən təhlükəli marşrut olaraq qalır.

## Cəbəllütariq boğazında qayıq yoxa çıxıb



***İspaniya sahillərində içərisində 7 miqrantın olduğu qayıq itib.***

RİA Novosti agentliyi xəbər verir ki, bu barədə "Sərhədləri aşaraq" ictimai təşkilatının rəhbəri Yelena Maleno "Twitter" səhifəsində yazıb. Onun sözlərinə görə, qayıq Cəbəllütariq boğazında yoxa çıxıb. Miqrantların mobil telefonları cavab vermir və qohumları onları itkin düşmüş hesab edir.

İspaniyanın dənizdə xilasetmə xidmətinə ictimai təşkilatlardan miqrant aparan qayıqlar barədə məlumatlar tez-tez daxil olur. Xidmətin əməkdaşları təkcə çərşənbə axşamı İspaniya sahillərində 200-dən çox insanı xilas ediblər.

Bu il yanvarın 1-dən iyulun 15-dək İspaniyaya Aralıq dənizi vasitəsilə Əlcəzair və Mərakeşdən 18 mindən çox miqrant və qaçqın gəlib. Bu baxımdan İspaniya, Beynəlxalq Miqrasiya Təşkilatının məlumatına görə, İtaliyanı geridə qoyub.

# Əli Həsənov: “Gəncədə yaranmış həssas dönəm cəmiyyətimizin dövlətin ətrafında daha sıx birləşməsini tələb edir”



***İyulun 3-ü axşam Gəncə Şəhər İcra hakimiyyətinin başçısı Elmar Vəliyevə qarşı törədilmiş sui-qəsdlə bağlı BBC əməkdaşının sualına cavab verərkən, mən ilkin məlumatlardan çıxış edərək söyləmişdim ki, “bu, icra başçısına qarşı törədilmiş kriminal hadisədir, silahlı basqın olub, başçı və mühafizəçisi xəsarət alıb, hadisəni törədən şəxs yaxalanıb, hüquq mühafizə orqanları lazımi tədbirləri görürlər”. Belə ağır cinayət hadisələri zamanı müvafiq orqanların rəyi olmadan daha təfsilatlı şərhlə çıxış etməyi düzgün hesab etmədim. Bir dövlət məmuru kimi mənim həmin açıqlamam, əlbəttə ki, dövlətin hadisəni nəzarətə götürdüyü haqqında cəmiyyəti məlumatlandırmaq istəyi ilə əlaqəli olmuşdu.***

Bu fikirləri Azərbaycan Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov Facebook sosial şəbəkəsindəki səhifəsində Gəncə hadisələri barədə statusunda bildirib.

Əli Həsənov qeyd edib ki, iyulun 6-da Baş Prokurorluq, Daxili İşlər Nazirliyi və Dövlət Təhlükəsizliyi Xidmətinin yaydığı birgə məlumatda baş vermiş cinayətin terror, cinayəti törədən Yunis Səfərovun xarici vətəndaş olduğu, Azərbaycan dövləti tərəfindən sanksiyalaşdırılmayan döyüş əməliyyatlarında iştirak etdiyi bildirildi. Həm yerli, həm xarici mediada dərc olunmuş materiallarda sui-qəsdçinin həyat yoldaşının bir neçə dəfə yayımlanmış videomüraciətlərində onun bu əməli şəxsi motivlərlə, qisas naminə və ya bəzilərinin iddia etdiyi kimi “sosial zülm”ə qarşı etiraz olaraq deyil, məhz Suriyada uğrunda döyüşdüyü “ideallar” naminə - şəriət dövləti bərqərar etmək üçün törətdiyi bəlli oldu.

Yunis Səfərov maddi təminatı yüksək olan bir ailənin üzvüdür, xarici vətəndaşdır və təbii ki, Azərbaycanın hansısa bölgəsində sosial ədalət naminə “solçu inqilabı” haqqında düşünməyib də. Açıqlamalardan göründüyü kimi, o, bu əmələ uzun illər hazırlaşıb, öz niyyətini həyata keçirmək üçün müvafiq məqam və tapşırıq gözləyib. Görünür, Mingəçevir şəhərində baş vermiş qəza ilə əlaqədar yaranmış gərginlik bunun üçün əlverişli məqam hesab edilib.

Prezidentin köməkçisi bildirib ki, sözügedən dairələrə yaxın xarici media və Facebook səhifələrinin hələ 2017-ci ilin əvvəllərində Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı haqqında islamofob və antişiə imici yaratmaq cəhdləri Azərbaycan KİV-lərində müzakirə olunmuşdu. Bu ilin əvvəllərindən isə müəyyən reket nəşrlərdə Elmar Vəliyevin kobud rəftarı haqqında dərc edilən materialların sayında kəskin artım müşahidə edilmişdi. Görünür, ölkə əhalisinin dini mövzulara o qədər də həssas olmaması səbəbindən onun barəsində “sosial zülmün səbəbkarı” imici formalaşdırmağa ehtiyac varmış.

Hadisə baş verdikdən dərhal sonra radikal dini səhifələr və saytlar, Vətənə xəyanət ittihamı ilə mühakimə edilmiş separatçılara bağlı KİV-lər Yunis Səfərovu yeni “gəncəbasar qisasçısı”, “qəhrəman” elan etməyə tələsdilər. Bu dəfə də onlara Avropadakı iaşə müxalifəti və onların rəhbərlik etdiyi internet kanallarından, Leyla Yunusova kimi antimilli ünsürlərdən kömək gəldi. Rusiyada “talış separatçısı kimi ad-san qazanmış” İsmayıl Şabanovun, Hollandiyada eyni statusla yaşayan Ələkrəm Hümbətovun çevrəsi cinayətkarın müdafiə komitəsini yaradıb xarici dövlət rəsmilərinə müraciət etdilər. 2016-cı ilin Aprel döyüşləri zamanı erməni hərbi mundiri ilə ekranlardan Azərbaycanı, Azərbaycan əsgərini aşağılayan bir xain ona şeir də həsr etdi. Təsadüfi deyil ki, Azərbaycan dövləti və onun müstəqil siyasətinin əleyhinə son dövrlərdə sistemli ideoloji təxribatla məşğul olan bəzi xarici dini saytlar da bu günlərdə xüsusi canfəşanlıq göstərdilər. Kimə məxsusluğu bəlli olmayan Ru-clip.ru saytının Youtube kanalı isə “Səda HD” kimi təqdim olunan şirkətin hazırladığı və üsyana səsləyən 5 klip - çağırış yayımladı.

Beləliklə, biz dövlətçiliyimizə qarşı separatçıların, radikal dindarların, yalnız pula və məişət komfortuna işləyən “iaşə müxalifəti”nin sinxronlaşdırılmış ideoloji təxribatı faktı ilə üz-üzəyik. Xarici anti-Azərbaycan qüvvələrin bu mənfur niyyətini anlamaq olar, ancaq daxildən onlara dəstək verən, polis əməkdaşlarına qarşı qəddar cinayətə bəraət qazandırmağa çalışan, yaxud da xaricə qaçıb erməni maliyyəsinin girovuna çevrilənlərin xain canfəşanlığını heç cür başa düşmək mümkün deyil.

Əli Həsənov yazır ki, belə həssas vəziyyət cəmiyyətimizin, bütün vətəndaşlarımızın milli dövlətçilik ətrafında daha sıx birliyini tələb edir. Xüsusən ictimai rəyə təsir imkanı olan insanlar - deputatlar, ziyalılar, tanınmış ictimaiyyət nümayəndələri, siyasi fəallar, media və QHT təmsilçiləri daha həssas davranmalı, iqtidara və ya onun ayrı-ayrı nümayəndələrinə bəslədikləri fərdi münasibətlərlə dövlət və Vətən mənafelərini bir-birindən fərqləndirməlidirlər.

XIX əsr Rusiyasında Vera Zasuliç adlı qadın ilk terror aktını həyata keçirəndə rus ziyalılarının müəyyən kəsimi onu qəhrəman kimi təqdim etməyə çalışmışdı və buna qismən nail də olmuşdular. Həmin terrorun mifləşdirilməsi ilə başlayan hadisələr sonrakı dövrdə Rusiyada üç inqilaba, milyonlarla insanın vətəndaş savaşında həlak olmasınadək inkişaf etmişdir.

İdeoloji təxribat deyəndə bir məqamı da yada salmaq yerinə düşərdi. Yaxın tariximizdə Azərbaycan əsilli xarici vətəndaşın törətdiyi ilk terror aktı Azərbaycan Dövlət Neft Akademiyası hadisəsidir. Amma həmin terror öz hədəfinə çatmamış, terror aktı, onu törədən şəxs və arxasındakı qüvvələr cəmiyyət tərəfindən birmənalı olaraq lənətlənmişdilər. Bu dəfə də terror Azərbaycan əsilli xarici vətəndaş tərəfindən törədilib. Amma qeyd etdiyim kimi, ona ictimai bəraət qazandırmaq üçün uzunmüddətli iş aparılıb. Bəzi sosial səhifələrdə “qalxın, digər şəhərlərdə də bunu təkrar edin” çağırışları terrorun yeni dalğasına çağırış kimi qiymətləndirilə bilər. Çünki bu aksiyalarda Azərbaycan vətəndaşlarının kütləvi iştirakını təmin etmək məqsədi güdülür.

Sonra Prezidentin köməkçisi yazır: “1970-ci illərin ikinci yarısında Türkiyədə solçular və sağçılar öz aralarındakı gərginliyi və dövlətlə anlaşılmazlıqları silah, “devrim” (əslində terror) gücünə həll etməyə başlayanda Süleyman Dəmirəlin dediyi məşhur bir ifadə yadıma düşdü: “Cümhuriyyət polisinə güllə atan əllər kəsilməlidir”. Əlbəttə ki, bununla müasir Türkiyədə heç də Osmanlı dövlətinin tarixinə aid olan sərt cəzanın birbaşa tətbiqi nəzərdə tutulmurdu, dövlətin məmurunu terror edənlərin sərt şəkildə cəzalandırılmasının vacibliyinə diqqət çəkilirdi.

Əminliklə deyə bilərəm ki, Azərbaycanda qarşıdurma, xaos yaratmaq istəyənlər qanunun sərt üzünü görəcəklər və ən ciddi şəkildə cəzalandırılacaqlar. Bununla yanaşı, təsadüfən, hadisə ictimai maraq kəsb etdiyinə görə öz iradələrinin əleyhinə olaraq bu əməlin iştirakçısına çevrilmiş hər kəsi bu yanlış addımlardan çəkinməyə dəvət edirəm”.

“Azərbaycan dövləti, dövlətçiliyi, milli maraqlarımız heç vaxt müzakirə mövzusu olmamalıdır”, - deyən Əli Həsənov bildirir ki, bu dəyərlərə təhlükə yarandıqda hər bir vətəndaş, hər bir azərbaycanlı öz qəti mövqeyini ortaya qoymalı, milli iradəsini nümayiş etdirməlidir. Buna görə də Azərbaycan dövlətinin terror və terror çağırışlarına qarşı atacağı sərt addımların ziyalılar, tanınmış ictimaiyyət nümayəndələri, vətəndaş cəmiyyəti təmsilçiləri tərəfindən düzgün anlaşılmalı, geniş kütlələrə düzgün mesajlar verilməlidir. Hər hansı səbəb və ya bəhanə ilə terrora bəraət qazandırmaq cəhdləri yolverilməzdir, sosial səhifələrin aktiv iştirakçıları və KİV nümayəndələri yazı, rəy və şərhlərində müvafiq qanunvericiliyin tələblərini və dövlət maraqlarını unutmamalı, hadisələrə daha peşəkar və obyektiv yanaşmalıdırlar.

# Azərbaycanda xalq-iqtidar birliyini heç bir qüvvə sarsıda bilməz

## *Gəncədə sabitliyi pozmağa çalışanların hədəfində təkcə Gəncə və gəncəlilər deyildi*

***İyulun 10-da Gəncə şəhərində baş verənlərdən xəbər tutanda çox məyus oldum və uzun müddət özümə gələ bilmədim.***

Artıq hamımıza bəlli olduğu kimi, həmin gün saat 20 radələrində radikal dini yönümlü bir qrup şəxs Gəncə Şəhər İcra Hakimiyyətinin inzibati binasının önündəki meydana toplaşaraq asayişi kobud şəkildə pozmağa cəhd göstərib. Xidməti vəzifələrini yerinə yetirən polis əməkdaşlarının xəbərdarlığına məhəl qoymayan qanunazidd hərəkətlərin iştirakçıları özləri ilə gətirdikləri küt və kəsici-deşici alətlərlə asayiş keşikçilərinə müqavimət göstəriblər.

Azərbaycan polisi hər zaman çiyinlərinə düşən vəzifəsini layiqincə yerinə yetirib. Qarabağ müharibəsində də qəhrəmanlığının şahidi olduğum Azərbaycan polisi Gəncə hadisələri zamanı bir daha sübut etdi ki, öz canı bahasına olsa belə, ölkəmizdə sabitliyi, asayişi qorumağa qadirdir.

Polis əməkdaşlarının həyata keçirdikləri qətiyyətli tədbirlərlə qanunsuz hərəkətlərin qarşısı alınarkən Gəncə Şəhər Baş Polis İdarəsinin rəis müavini, polis polkovniki İlqar Balakişiyev və Nizami Rayon Polis İdarəsinin rəis müavini, polis polkovnik-leytenantı Səməd Abbasov radikal ünsürlərin kəsici-deşici alətlərlə yetirdikləri zərbələr nəticəsində şəhid olublar. Allahdan şəhid polislərimizə rəhmət, yaxınlarına səbir diləyirik.

Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsində, sabitliyin qorunmasında xüsusi xidməti olan polis əməkdaşlarına qarşı törədilən bu cinayət həm də Vətənə, xalqa xəyanətdir. Bütün xalqımız kimi, “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyətinin çoxminli kollektivi də polis əməkdaşlarına qarşı törədilən bu qanlı cinayəti qətiyyətlə pisləyir.

Böyük üzüntü və təəssüf hissi ilə bildirirəm ki, qardaş qanı tökmək nə dinimizə, nə mənəviyyatımıza yaraşan hərəkət deyil. Terror aktlarının dini şüarlar altında törədilməsi isə sülh, barış dini olan müqəddəs İslama qarşı ən böyük cinayətdir. Dövlətimizin başçısı cənab İlham Əliyevin respublikanın hüquq-mühafizə orqanları rəhbərlərinin iştirakı ilə keçirilən iclasda dediyi kimi: “Çünki İslam sülh, mərhəmət dinidir. Azərbaycan dövləti və Azərbaycan xalqı öz milli, dini dəyərlərini daim qoruyur. Azərbaycan İslam mədəniyyətini dünyada ən çox təbliğ edən ölkələrdən biridir. Bildiyiniz kimi, ötən il Azərbaycanda “İslam Həmrəyliyi İli” elan olunub, İslam Həmrəyliyi Oyunları keçirilib. Bu il Naxçıvan İslam mədəniyyətinin paytaxtı şəhəridir. Bir neçə il əvvəl Bakı şəhəri bu şərəfli ada layiq görülüb. Müsəlman ölkələrini birləşdirən İslam Əməkdaşlıq Təşkilatı Azərbaycanda dini sahədə görülən işlərə ən yüksək qiymət verir. Azərbaycan dövlətinin xətti və dəstəyi ilə dövlət vəsaiti hesabına bizim tarixi-dini abidələrimiz tam bərpa olunub, yenidən qurulub, yeni məscidlər tikilib. Yəni, bir daha demək istəyirəm ki, bu cinayəti dinimizə bağlamaq istəyənlər dinimizə qarşı ən böyük cinayət törədiblər.”



Sabitlik, inkişaf, tolerantlıq müstəqil ölkəmizin ən böyük sərvətidir. Bu sərvətin məhvinə yönələn bütün cəhdlərin qarşısı qətiyyətlə alınmalıdır və alınır.

Unutmayaq ki, ölkəmizin ən böyük şəhərlərindən birində sabitliyi pozmağa çalışanların hədəfində təkcə Gəncə və gəncəlilər deyildi. Hər birimiz idik, bütün Azərbaycan xalqı idi, bütün Azərbaycan idi.

Biz hamımız bir yurdun övladlarıyıq. Ermənilər kimi düşmənlərimiz, Qarabağ kimi problemimiz ola-ola damarlarında azərbaycanlı qanı axan kimsə Azərbaycanın inkişafını və qüdrətlənməsini qəbul etmək istəməyənlərin dəyirmanına su tökməməli, yağıların çirkin əməllərinə alət olmamalıdır.

Gəncədə baş verən hadisələrin arxasında Azərbaycanı sevməyən, Azərbaycanın müstəqilliyini həzm edə bilməyən, onun sürətli inkişafını gözü götürməyən qüvvələr durur.

Azərbaycan demokratik və hüquqi dövlətdir. Ölkəmizin sürətli inkişafı göz qabağındadır. Ulu öndər Heydər Əliyevin qurub yaratdığı müstəqil müasir Azərbaycan Respublikası bu gün onun layiqli davamçısı Prezident İlham Əliyevin rəhbərliyi ilə regionun lider dövlətinə çevrilib. Bu tərəqqi, Azərbaycanın həyata keçirdiyi Bakı-Tbilisi-Qars dəmir yolu, TANAP kimi nəhəng beynəlxalq iqtisadi layihələr, Silahlı Qüvvələrimizin dünyanın ən qüdrətli ordularından birinə çevrilməsi başda ermənilər olmaqla bütün bədxahları ciddi narahat etməyə başlayıb. Bu baxımdan, Gəncə hadisələrinin Ordumuzun yaranmasının 100 illiyi münasibətilə Bakıda keçirilən təntənəli hərbi paraddan bir müddət sonra baş verməsini də təsadüf saymaq olmaz.

İnkişafımızı gözü götürməyənlərin, müstəqil siyasət aparan Azərbaycanın qüdrətlənməsinə qısqanclıqla yanaşanların niyyətləri çox təhlükəlidir. Çünki onlar sadəcə ölkəmizin hər hansı bir şəhərində iğtişaşlar törətmək istəmirlər. Qara qüvvələr hazırda əmin-amanlıq adası olan Azərbaycanı ötən əsrin doqsanıncı illərinin əvvəllərindəki vəziyyətə qaytarmaq istəyirlər, ölkəmizdə hərc-mərclik, xaos yaratmaqla dövlətçiliyimizi məhv edəcəklərinə ümid bəsləyirlər. Gəncə hadisəsinin qabaqcadan planlaşdırılmış - antiazərbaycançı güc mərkəzləri tərəfindən təşkil edilmiş terror hadisəsi olduğu da artıq bəllidir.

Ancaq həmin qüvvələr unudurlar ki, bugünkü Azərbaycan keçən əsrin 1990-cı illərin əvvəllərindəki Azərbaycan deyil. Azərbaycanda sabitlik və əmin-amanlıq möhkəm dayaqlar üzərində qərar tutub. İndi güclü dövlətimiz var, xalqın dəstəklədiyi Prezidentimiz var. Əmin-amanlıq, sabitlik şəraitində yaşayan xalqımız, müstəqil ölkənin vətəndaşları olmaqdan iftixar hissi keçirən hər bir azərbaycanlı heç vaxt pozucu qüvvələrə meydan verməyəcək.

Möhtərəm Prezidentimiz İlham Əliyevin respublikanın hüquq mühafizə orqanları rəhbərlərinin iştirakı ilə keçirilən iclasda səsləndirdiyi sözlərlə desək: “Azərbaycanda təhlükəsizlik ən yüksək səviyyədə təmin edilir. Dünya miqyasında Azərbaycan ən təhlükəsiz ölkələrdən biridir. Azərbaycan xalqı sülh, əmin-amanlıq, təhlükəsizlik şəraitində yaşayıb yaradır, qurur. Azərbaycan xalqının rahat yaşaması üçün biz əlimizdən gələni edirik.”

Həmin tədbirdə Azərbaycanın dünya miqyasında sürətlə inkişaf edən müasir dövlət olduğunu diqqətə çatdıran Prezident xüsusilə vurğulayıb ki, gündən-günə bizim gücümüz artır, gündən-günə bizim potensialımız güclənir - həm siyasi sahədə, diplomatik sahədə, iqtisadi sahədə, hərbi quruculuq sahəsində, döyüş meydanlarında, idman meydançalarında, sosial sahədə. Son 15 il ərzində iqtisadi inkişaf baxımından Azərbaycan qədər sürətlə inkişaf edən ikinci bir ölkə olmamışdır. Ona görə, əlbəttə ki, bizim uğurlarımıza kölgə salmaq, siyasətimizə təsir etmək istəyən qüvvələr müxtəlif üsullardan istifadə edirlər. Bizə qarşı çirkin kampaniyalar aparılır, qarayaxma, şər-böhtan kampaniyaları. Yalan, iftira üzərində qurulmuş bu kampaniyaların heç bir səmərəsi olmur. Azərbaycan xalqı bu yalanlara, bu böhtanlara inanmır. Azərbaycan xalqı öz rəhbərliyinə inanır. Bu il keçirilmiş prezident seçkiləri bunu bir daha bütün dünyaya əyani şəkildə sübut etdi.

Gəncə hadisələri bir daha göstərdi ki, xaricdə oturub Azərbaycanda qarışıqlıq yaratmaq istəyənlərin, sapı özümüzdən olan baltaların ölkəmizdə sabitliyi pozmaqla bağlı bütün cəhdləri əbəsdir. İgidlərimizin canı və qanı bahasına əldə edilən, ümummilli lider Heydər Əliyevin müdrik, qətiyyətli addımları ilə dönməz xarakter alan, layiqli varisi İlham Əliyevin rəhbərliyi altında gündən-günə qüdrətlənən Azərbaycanın müstəqilliyini heç bir qüvvə sarsıda bilməz. Çünki ölkəmizdəki xalq-iqtidar birliyi, Azərbaycan dövlətinin və Azərbaycan xalqının həmrəyliyi çirkin niyyətlərin və əməllərin həyata keçməsinə həmişə sipər olacaq. Azərbaycan xalqı, cəmiyyəti ölkəmizin müstəqilliyinə və xalqımızın firavanlığına istənilən qəsdin reallaşmasına heç cür imkan verməyəcək. Azərbaycanın dövlət müstəqilliyinə, ölkəmizdəki ictimai-siyasi sabitliyə qarşı çıxan istənilən bir qüvvə bu birlik və həmrəylik qarşısında gücsüzdür.

Prezident İlham Əliyevi respublikanın hüquq mühafizə orqanları rəhbərlərinin iştirakı ilə keçirilən iclasda dediyi kimi: “Bizim müstəqillik tariximizdə ölkəmizə qarşı bir neçə dəfə təxribatlar törədilib, o cümlədən silahlı təxribatlar, terror aktları, dövlət çevrilişlərinə cəhd. Onların biri də baş tutmadı. Bunun başlıca səbəbi ondan ibarətdir ki, Azərbaycanda xalq-iqtidar birliyi var. Mən dəfələrlə bu barədə öz fikirlərimi bildirmişdim, bir daha demək istəyirəm, xalq-iqtidar birliyi sabitliyimizin əsas şərtidir. Xalq-iqtidar birliyini heç bir qüvvə - nə xarici, nə daxili qüvvə sarsıda bilməz.”

Bəli, Azərbaycan dövləti müstəqilliyini bərpa etdikdən sonra çox sınaqlardan çıxıb.

“Bizim siyasi iradəmizə heç bir qüvvə təsir edə bilməz. Bizi tutduğumuz yoldan heç kim döndərə bilməz. Azərbaycanın müasir tarixi mənim dediklərimi dəfələrlə sübut edib. Kim ki, bizə qarşı çirkin niyyətlərlə hərəkət edib, özü bu hərəkətlərin qurbanı olub. Əvvəllər də belə olub, bu gün də belədir, bundan sonra da belə olacaq”, - deyə dövlətimizin başçısı qeyd edib.

Bu isə həm də o deməkdir ki, “Azərbaycanın dövlət müstəqilliyi əbədidir, dönməzdir və sarsılmazdır”.

***Rasif TAHİROV***

# Azərbaycan gəmiləri Xəzərin Rusiya sektorunda dibdərinləşdirmə işləri görür






***“Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” QSC-nin Xəzər Dəniz Neft Donanmasına məxsus bir sıra gəmiləri “Voltar Marine” şirkətinin sifarişi əsasında “Filanovski” yatağında dibdərinləşdirmə işləri yerinə yetirir.***

Dibdərinləşdirmə layihəsinin icrasına bir torpaqqazan (“Mühəndis Balarza Məmmədov”), üç torpaqdaşıyan (“Bakinskaya 3”, “Bakinskaya 5”, “Bakinskaya 6”) və “Yarenqa” təchizat-yedək gəmiləri cəlb olunub.

Ümumilikdə 27 min 50 kubmetr qazma işləri həyata keçirilib və bununla da 2018-ci il iyunun 26-da start götürən layihənin birinci mərhələsi başa çatıb.

“Filanovski” yatağında layihənin ikinci mərhələsində görülməsi planlaşdırılan işlər də Gəmiçiliyin gəmiləri ilə yerinə yetiriləcək. Belə ki, 600 ton yükqaldırma qabiliyyətinə malik “Qurban Abasov” kran gəmisi həmin ərazidə platformanın dayaq blokunun quraşdırılması işlərində, “Yarenqa” yedək-təchizat gəmisi isə lövbər əməliyyatlarında istismar ediləcək.

Layihə zamanı bütün SƏTƏM prosedurlarına riayət olunub və heç bir xoşagəlməz hadisə baş verməyib. Qeyd edək ki, “AXDG” QSC-nin gəmiləri “Filanovski” yatağındakı işlərin növbəti mərhələlərinə də cəlb olunacaq.

İrimiqyaslı layihələrdə Gəmiçiliyin aktiv iştirakı ölkəyə xarici valyuta gətirməklə yanaşı, eyni zamanda əməkdaşlıq, təcrübə qazanmaq baxımından da olduqca əhəmiyyətli sayılır.

Məlumat üçün bildirək ki, Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin Xəzər Dəniz Neft Donanması Xəzər dənizində neft-qaz hasilatı proseslərinin tam təmin edilməsi, o cümlədən dəniz özüllərinin, estakadaların tikintisi, geoloji-kəşfiyyat, neft-qaz kəmərlərinin çəkilişi və digər xidmətləri həyata keçirir. Donanmanın tərkibində müxtəlif tip ixtisaslaşdırılmış gəmilər var ki, bu da Gəmiçiliyi göstərdiyi xidmətlərin çoxşaxəliyinə görə dünyada unikal şirkətlər sırasına daxil edir.

# Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Dövlət Dəniz Agentliyinin mütəxəssislərindən ibarət birgə işçi qrup yaradılacaq



***Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Dövlət Dəniz Agentliyində direktor Qüdrət Qurbanovla ekologiya və təbii sərvətlər naziri Muxtar Babayevin rəhbərlik etdiyi nümayəndə heyəti arasında görüş keçirilib.***

Görüşdə Xəzər dənizinin çirkləndirilməsinin qarşısının alınması üçün qarşılıqlı tədbirlərin həyata keçirilməsinin vacibliyi qeyd olunub, gəmilərdə formalaşan tullantıların idarə edilməsi ilə bağlı fikir mübadiləsi aparılıb. Tərəflər gəmilərdə formalaşan döşəməaltı neftli suların, məişət çirkab sularının və müxtəlif tərkibli bərk tullantıların “Dənizin gəmilərdən çirkləndirilməsinin qarşısının alınması haqqında” Beynəlxalq Konvensiyanın və milli qanunvericiliyin tələblərinə uyğun idarə olunması və utilizasiya edilməsi məsələlərini müzakirə ediblər. Müzakirələr zamanı Avropa Dəniz Təhlükəsizliyi Agentliyinin “CleanSeaNet” layihəsi çərçivəsində və Dövlət Dəniz Agentliyinin tabeliyində fəaliyyət göstərən Uzaq Məsafədən Tanınma və İzləmə Milli Mərkəzinin texniki imkanları vasitəsilə peyk görüntüləri əsasında dənizdə neft ləkələrinin aşkar edilməsi, onların mənbəyinin müəyyən olunması ilə bağlı məlumatların Ekologiya və Təbii Sərvətlər Nazirliyinə operativ ötürülməsinin təmin ediləcəyi bildirilib.

Yekun olaraq, Xəzərin Azərbaycan sektorunda üzən gəmilərdə formalaşan maye və bərk tullantıların düzgün idarə olunması məqsədilə agentlik və nazirliyin mütəxəssislərindən ibarət birgə işçi qrupun yaradılması barədə qərar qəbul olunub.

Muxtar Babayev dənizdə üzən gəmilərin müşahidə edilməsi üçün agentlik tərəfindən yaradılmış Uzaq Məsafədən Tanınma və İzləmə Milli Mərkəzi ilə tanış olub.

Qeyd edək ki, "Dənizdə insan həyatının mühafizəsinə dair Beynəlxalq Konvensiya”nın tələblərinin yerinə yetirilməsi məqsədilə Xəzəryanı ölkələrdən ilk dəfə olaraq Azərbaycanda ən son naviqasiya və müşahidə avadanlıqları ilə təchiz edilmiş Uzaq Məsafədən Tanınma və İzləmə Milli Mərkəzi yaradılıb. Mərkəz “Azərbaycan Respublikasının ərazi sularında üzmə Qaydaları”na riayət olunmasına nəzarəti həyata keçirəcək, həmçinin Azərbaycanın ərazi sularında üzən gəmilərin mövqeyinin izlənilməsi, onların hərəkət təhlükəsizliyinin təmin edilməsində naviqasiya xəbərdarlıqlarına və hava haqqında proqnozlara dair müvafiq bilgilərin, habelə digər mühüm məlumatların ölkə daxilində və beynəlxalq səviyyədə operativ çatdırılmasını təmin edəcək.

# “İrgiz” yedək-təchizat gəmisi yeni xarici layihəyə cəlb olunub



***“Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” QSC-nin Xəzər Dəniz Neft Donanmasına məxsus “İrgiz” yedək-təchizat gəmisi “Seven Mile Shipping Limited” şirkətinin sifarişi əsasında “Jambul” layihəsi çərçivəsində Xəzərin Qazaxıstan sektorunda yedək-təchizat işləri həyata keçirir.***

***Hazırda işlər uğurla davam etdirilir.***

# 364 milyon balıq körpəsi yetişdirilərək təbii su hövzələrinə buraxılıb

***Cari ilin altı ayı ərzində, ümumilikdə 364 milyon balıq körpəsi süni formada yetişdirilərək təbii su hövzələrinə buraxılıb. Bunlardan təxminən altı milyonunu nərəkimilər, 81470-ni qızılbalıq, 358 milyonunu çəkikimilər təşkil edir. Bütün növlər üzrə buraxılış ilin sonunadək davam etdiriləcək.***

Bu barədə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin su hövzələrində bioresursların artırılması sektorunun müdiri Fəridə Ələkbərova məlumat verib.

Sektor müdiri bildirib ki, martda IDEA İctimai Birliyi və ABŞ-ın Azərbaycandakı səfirliyinin dəstəyi ilə Florida ştatından Xıllı Nərə Balıqartırma Zavoduna (NBZ) mayalanmış bölgə kürüsü gətirilib. Hazırda həmin dördaylıq bölgə balıq körpələri Xıllı NBZ-də yetişdirilir.

# Xəzər dənizi vasitəsilə Azərbaycana qanunsuz yolla yük gətirilməsi cəhdinin qarşısı alınıb




***Xəzər dənizində Azərbaycan Respublikasının İqtisadi Mənafelərinin Mühafizəsi Gömrük İdarəsindən daxil olan əməliyyat məlumatı əsasında Sumqayıt Baş Gömrük İdarəsinin əməkdaşları Xəzər dənizi vasitəsilə ölkə ərazisinə qanunsuz yolla yük gətirilməsi cəhdinin qarşısını alıb.***

Dövlət Gömrük Komitəsinin mətbuat xidmətindən bildirilib ki, gömrük əməkdaşları İran İslam Respublikasından Azərbaycana gələn “NILOUFAR ABI” adlı yük gəmisinə baxış keçiriblər. Baxış zamanı, gəmidə Azərbaycan Respublikasının gömrük ərazisinə idxal olunan və gömrük orqanına bəyan edilməyən 98 min 120 kiloqram ağ sement və 24 min 500 kiloqram polietilen yükləri aşkarlanıb.

Faktla bağlı araşdırma aparılır.

# ABŞ “Şimal axını 2”nin investoru olan şirkətlərə sanksiyalar tətbiq edə bilər




***ABŞ “Şimal axını 2” (“Nord Stream 2”) təbii qaz boru kəməri layihəsinin iştirakçısı olan Qərb şirkətlərinə sanksiyalar tətbiq edə bilər.***

Bu barədə ABŞ Xarici İşlər Nazirliyinin sözçüsü deyib. O bildirib ki, Rusiyanın “Şimal axını 2” layihəsinə investisiya qoyan Qərb şirkətlərinin sanksiyalarla qarşı-qarşıya qalma riskləri var.

Rəsmi Vaşinqton Rusiya təbii qazını Almaniya üzərindən Avropaya daşıyacaq “Şimal axını 2” boru kəmərini Moskvanın Avropanı bölmək üçün istifadə etdiyini müdafiə edərək, bu boru kəmərini inşa edən şirkətlərə sanksiyalar tətbiq ediləcəyinə dair yenidən xəbərdarlıq edib: “Rusiyanın boru kəməri ilə enerji ixracında çalışan şirkətlərin sanksiya riski daşıyan fəaliyyət həyata keçirdikləri barədə qərarlıyıq. Biz, bu boru kəmərinin Avropanın ümumi enerji təhlükəsizliyi və sabitliyinə mənfi təsir edəcəyinə inanırıq. Rusiya layihənin Avropanı “parçalamaqda” olduğunu başa düşür və bundan öz lehinə istifadə edir”.

Qeyd edək ki, beynəlxalq enerji şirkətləri “Wihtershall”, “Uniper”, “OMV”, “Shell” və “Engie” “Şimal axını 2” layihəsinə investisiya yatırıb.

“Nord Stream II AG” konsorsiumunun məlumatına görə, “Şimal axını 2” təbii qaz boru kəmərinin inşası üçün hazırlıq işləri Almaniyanın Baltik dənizi sahilindəki Greifswald Körfəzində başlanılıb. Marşrut boyunca digər üç ölkədə - Rusiya, İsveç və Danimarkada müvafiq icazələrin alınması prosedurlarına başlanıb. Tikinti işləri nəzərdə tutulduğu kimi 2018-ci ildə həyata keçiriləcək. Yanvarda Almaniya tərəfindən “Şimal axını 2” qaz boru kəmərinin inşasına dair icazə verilib.

“Gazprom” şirkəti “Şimal axını 2” təbii qaz boru kəməri layihəsinin 2019-cu ilin sonunadək başa çatdırılacağını açıqlayıb. Ümumilikdə 9,5 milyard dollara başa gələcək və 1220 kilometr uzunluğundakı “Şimal axını 2” qaz kəməri Baltik dənizindən keçməklə Rusiyadan Almaniyaya ildə 55 milyard kubmetr təbii qaz nəql edəcək. “Gazprom”la yanaşı, “Shell”, “OMV”, “Engie”, “Uniper” və “Wintershall” kimi enerji şirkətləri layihənin əsas tərəfdaşlarındandır. “Şimal axını 2” ilə Rusiyanın Baltik dənizindən keçməklə Almaniyaya təbii qaz ixracı ildə 110 milyard kubmetri keçəcək.



# Liviyadakı limanlardan neft ixracı yenidən başlayıb

***Liviyadakı 4 limandan yenidən neft ixracına başlanılıb.***

Bu barədə Liviyanın Milli Neft Korporasiyası məlumat yayıb. Bildirilir ki, ölkənin şərqində yerləşən limanlardan yenidən neft ixracı həyata keçirilir.

Qeyd edək ki, ölkənin Hariga və Neft Hilalı bölgələrindəki limanların neft ixracını dayandırması nəticəsində yaranmış ziyan bu vaxtadək 920 milyon dollar olub. Limanlardan ixracın dayanması ilə əlaqədar bu bölgələrdə hasil edilə bilməyən neftin həcmi 12,5 milyon barrelə çatıb. İxracın dayanması nəticəsində yaranmış ziyan indiyə qədər 920 milyon dollar, gündəlik isə 67 milyon dollara yaxın olub. Böhrandan əvvəl gündəlik 1 milyon barrel olan neft istehsalı hazırda 527 min barrelə düşüb.

Xatırladaq ki, ayın əvvəlində Liviyanın şərqindəki Ez-Zuveytine və El-Harika limanlarından da neft ixracı dayandırılıb. Daha əvvəl strateji əhəmiyyətə malik Sidra ve Ra's Lanuf limanlarından neft ixracı dayandırılmışdı. Sidra, Ra's Lanuf və Brega neft limanlarının yerləşdiyi bölgədə zəngin neft ehtiyatları var. Bu bölgədə ölkənin ümumi neft ehtiyatlarının 60 faizdən çoxu yerləşir.




# Kanada LNG ixracında mövqeyini gücləndirmək istəyir

***Kanada inşa edəcəyi mayeləşdirilmiş təbii qaz (LNG) terminalı ilə LNG ixracında mövqeyini gücləndirmək niyyətindədir.***

LNG terminal ilə “Montney” yatağında hasil edilən qazın Asiya bazarına ixracı ən qısa yolla həyata keçiriləcək.

“Royal Dutch Shell Plc” və şərikləri “Mitsubishi”, “Petroliam Nasional Bhd.”, “PetroChina Co.” və “Korea Gas Corp.” Kanadanın ən böyük infrastruktur layihəsi olan “LNG Canada”yı həyata keçirəcək. Asiyaya enerji ixracı üçün yol açacaq 30 milyard dollarlıq LNG terminalı qurulacaq. Layihə üzrə son investisiya qərarının bu ilin sonuna qədər qəbul edilməsi gözlənilir.

Limanın inşası başa çatdıqdan sonra Kitimat bölgəsindən 2017-ci ildə olduğu kimi qlobal LNG tədarükünün 10 faizinə bərabər olan ildə 28 milyon ton yükləmə həyata keçiriləcək. Bundan başqa, Şimali Amerika və Asiya arasında LNG tədarükü üçün ən qısa yoldan istifadə ediləcək.

Qeyd edək ki, liman və terminallarının olmaması ilə əlaqədar LNG-ni ucuz qiymətə ABŞ-a satan Kanadanın bu liman üçün əsas qaz mənbəyi Qətərin qaz ehtiyatlarının təxminən yarısı həcmində ehtiyata malik olan “Montney” şist qaz yatağı olacaq.

# Dünya əhalisinin sayı 7,5 milyard nəfəri ötüb




***İyulun 11-i Ümumdünya Əhali Günü idi. Bu əlamətdar tarixi 1989-cu ildə BMT-nin əhali problemlərinin həllinə yardım göstərən ən iri beynəlxalq təşkilatı olan Əhali Fondu təsis edib. Bu gün ilk dəfə 1990-cı ildə 90-dan artıq ölkədə qeyd edilib.***

Bu günün qeyd edilməsində əsas məqsəd ailə planlamasının əhəmiyyəti, gender bərabərliyi, yoxsulluq, qadın sağlamlığı və insan hüquqları kimi dünya əhalisi ilə bağlı müxtəlif məsələlər barədə məlumatlılığı artırmaq, insanların problemlərinə xüsusi diqqət yetirmək və ümumi inkişafa nail olmaqdır.

Son açıqlamalara əsasən, dünya əhalisinin sayı 7,5 milyard nəfəri ötüb. Birləşmiş Millətlər Təşkilatının proqnozuna görə, 2030-cu ildə bu rəqəm 8,6, 2050-ci ildə 9,8, 2100-cü ildə 11,2 milyarda bərabər olacaq. Təbii ki, bu ailə planlamasının səmərəliliyinə bağlıdır.

Əhalisinin sayına görə ilk üç yerdə Çin, Hindistan və ABŞ qərarlaşıb. Təxminən yeddi ildən sonra Hindistanın əhalisinin sayına görə Çinlə bərabər olacağı proqnozlaşdırılır. Azərbaycan əhalisinin sayı isə son statistikaya görə, 9 milyon 923 mindən çoxdur.

Dünya əhalisinin illik artımı təxminən 83 milyon nəfərə bərabərdir. Planetimizin əhalisindəki əsas artım Latın Amerikası, Afrika və Asiya ölkələri hesabına baş verir və yüksək ölüm nisbətinə baxmayaraq, bu ölkələr ənənəvi olaraq yüksək doğum səviyyəsinə malikdir. Bu gün Avropada doğum nisbəti əhalinin təbii bərpasını təmin edən normadan aşağıdır, lakin qitədə ömür uzunluğu çox yüksəkdir.

Dünya Əhali Günü 2005-ci ildən etibarən Azərbaycanda geniş şəkildə qeyd olunmağa başlanılıb. Ölkəmizdə MDB məkanında ilk dəfə, demoqrafiya sahəsində dövlət strategiyasını müəyyən edən “Azərbaycan Respublikasının Demoqrafik İnkişaf Konsepsiyası” təsdiq olunub.

Hər il bir deviz altında qeyd edilən həmin günün cari ildəki mövzusu “Ailə planlaması insanın hüququdur” adlanırdı.

# Neft bazarında boşluğu Səudiyyə Ərəbistanı doldurur

***İyunda Neft İxrac edən Ölkələr Təşkilatına (OPEC) üzv ölkələrdən İranın xam neft istehsalı azalıb, Səudiyyə Ərəbistanında isə hasilat artıb.***

Bu barədə OPEC-in aylıq hesabatında deyilir. Bildirilir ki, ötən ay İranın neft hasilatı əvvəlki ayla müqayisədə gündəlik 22 min 700 barrel azalıb. Bununla da may ayında sutkalıq neft istehsalı 3 milyon 822 min barrel olan İranın gündəlik hasilatı iyunda 3 milyon 799 min barrelə geriləyib.

Keçən ay OPEC üzrə neft istehsalını ən çox artıran ölkə Səudiyyə Ərəbistanı olub. Bu ölkənin neft hasilatı 405 min 400 barrel artaraq gündəlik 10 milyon 420 min barrelə yüksəlib. Səudiyyə Ərəbistanından sonra neft istehsalını ən çox artıran ikinci ölkə İraq olub və iyunda sutkada 4,5 milyon barrel neft hasil edib.

OPEC-in xam neft istehsalı isə iyunda may ayı ilə müqayisədə gündəlik 173 min barrel artaraq 32 milyon 330 min barrel olub. OPEC-in dünya neft hasilatındakı payı isə 33 faiz təşkil edib.

Qeyd edək ki, ABŞ İranın neftin ixracına sanksiyalar tətbiq edəcəyini açıqlayıb, Səudiyyə Ərəbistanı isə neft bazarında boşluğu doldurmaq üçün istehsalını artıracağını bildirib.

# Bakı Limanında ilk altı ayda konteyner və sərnişin dövriyyəsində ciddi artım müşahidə olunub





***Bakı Limanında ilk altı ayda konteyner və sərnişin dövriyyəsində ciddi artım müşahidə olunub.***

"Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC-nin mətbuat xidmətindən bildirilib ki, ölkə iqtisadiyyatında qeyri-neft sektorunun inkişafında aparıcı qurumlardan olan "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC (Bakı Limanı) öz fəaliyyətini uğurla davam etdirir. Belə ki, 2018-ci ilin ilk altı ayında yükaşırmanın həcmi 2 milyon tona çatıb. Ümumi yükaşırmanın 86 faizi tranzit yüklərin payına düşüb.

Hesabat dövrü ərzində ən çox artım konteyner aşırılmasında qeydə alınıb. Belə ki, 2018-ci ilin birinci yarımilində TEU ekvivalentində 10 min 746 ədəd konteyner aşırılması qeydə alınıb ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 53 faiz artım deməkdir. Sərnişindaşımasında isə 37 faiz artım müşayiət olunubdur. Belə ki, cari ilin 6 ayı ərzində 19 min 965 sərnişin Bakı Limanının imkanlarından istifadə edib. Onlardan 16 min 526 sərnişin (82,8 faiz) Türkmənistan, 3439 sərnişin (17,2 faiz) isə Qazaxıstan və əks istiqamətdə səfər edib.

Ələt qəsəbəsində yerləşən Bərə Terminalında vaqon aşırılması 21 min 960 ədədə çatıb. Vaqonların 9409-i (42,8 faiz) Bakı-Türkmənbaşı-Bakı istiqamətində, 161 vaqon (0,8 faiz) Bakı-Aktau-Bakı istiqamətində, 12 min 390 vaqon (56,4 faiz) isə Bakı-Kurık-Bakı istiqamətində hərəkət edib.

Hesabat dövrü ərzində Bakı Limanından istifadə edən irihəcmli nəqliyyat vasitələrinin sayı 9512 ədədə çatıb. Bunlardan 5353 ədədi (56,3 faiz) Bakı-Türkmənbaşı-Bakı istiqaməti, 4047 ədədi (42,5 faiz) Bakı-Aktau-Bakı istiqaməti, 112 ədədi (1,2 faiz) isə Bakı-Kurık-Bakı istiqaməti üzrə hərəkət edib.

Xatırladaq ki, 2018-ci il mayın 14-də Azərbaycan Respublikası Prezidentinin iştirakı ilə açılışı həyata keçirilib yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanının 1-ci fazada yükaşırma potensialı illik 15 milyon ton, o cümlədən 100 min TEU konteynerdir. 12 körpüdən ibarət limanın 7 körpüsü ümumi quru yük gəmilərinə, 2 körpü bərələrə, 2 körpü isə Ro-Ro və Ro-Pax tipli gəmilərə xidmət göstərir. Daha bir körpü isə Liman donanmasına xidmət edən körpü kimi istifadə olunur.

## Gəmiçilik ətraf mühitə zərər vurulmaması üçün qabaqlayıcı tədbirlər görür





***"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC ətraf mühitə zərər vurulmaması üçün qabaqlayıcı tədbirlər görür.***

Ətraf mühitin qorunması Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi üçün əsas davamlı inkişaf meyarlarından biridir. AXDG gəmilərin istismarı və sahil obyektlərinin fəaliyyəti nəticəsində yaranan neftli şlamların, işlənmiş yağların, digər maye və bərk tullantıların su mənbələrinə, qrunta və havaya ekoloji mənfi təsirlərinin minimuma endirilməsini daim diqqət mərkəzində saxlayır. Əməliyyatlar zamanı ətraf mühitə zərərin vurulmaması üçün mövcud imkanlar daxilində zəruri qabaqlayıcı tədbirlər görülür.

Cari ilin yanvar–may aylarının nəticələrinə görə, Cəmiyyətin həm sahil, həm də dəniz obyektlərində formalaşan 59194,75 ton çirkab məişət-təsərrüfat suyu, 3154 ton neftli döşəməaltı su, 125,45 ton işlənmiş sürtgü yağı, 24,1 ton yağlı əski, 12,49 ton sintetik propilen buraz kəndir qalığı bağlanmış müqavilələr əsasında səriştəli mütəxəssislərə və texniki resurslara malik sertifikasiyalı qurumlara təhvil verilməklə ərazilərdən kənarlaşdırılıb.

Həmçinin, 71 ədəd yararsız akkumulyator, 48,02 ton rezin tullantısı, 136 ədəd yanacaq, 362 ədəd yağ və 231 ədəd hava süzgəcləri, 9,5 ton yararsız təşkilati avadanlıq və toner-katric, 36,86 ton keramik qırıntı, 6 ton asbest qalığı, 36 ton işlənmiş boya qabı və boya tullantıları, 177,48 ton taxta tullantı, 25 ton tibbi tullantı, 84,98 ton şüşə qırığı, 129,44 ton sellüloz (kağız-karton) tullantısı, 172,62 ton tekstil parça qalığı, 116,47 ton polimer əsaslı və plastmas tullantı, 409,22 ton qida qalığı aidiyyəti üzrə təhvil verilib.

Qeyd edilən dövrdə Dənizkənarı Milli Park və Cəmiyyətin sahil fəaliyyət akvatoriyaları səthindən 0,95 ton neft-su qarışığı və 13,35 ton müxtəlif ölçülü əşyalar yığılıb təhvil verilib.

# Bakının beynəlxalq qovşağa çevrilməsi ölkə iqtisadiyyatına öz müsbət təsirini göstərəcək

***Çinin Bakı limanı və Ələt Azad İqtisadi Zonasından böyük gözləntiləri var.***

"Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC-nin mətbuat xidmətindən bildirilib ki, bunu Ələt qəsəbəsində yerləşən yeni Bakı Limanına səfər edən Çin Xalq Respublikasının vacib sənaye mərkəzlərindən biri hesab olunan Şenyan şəhərinin nümayəndə heyətinin rəhbəri və İqtisadiyyat və informasiya komitəsinin rəis müavini Ma An Lin deyib.

Qonaqların diqqətinə çatdırılıb ki, Çin hökumətinin həyata keçirdiyi "Bir Kəmər - Bir Yol" təşəbbüsü Ələt Azad İqtisadi Zonasının (ƏATZ) inkişafına təkan verəcək önəmli layihələrdən biridir. Vurğulanıb ki, çinli sahibkarlar ƏATZ-nin imkanlarından istifadə edərək, burada istehsal sahələri yaradaraq öz məhsullarını qonşu ölkələrə ixrac edə biləcəklər.



"Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC-nin baş direktoru Taleh Ziyadov məlumat verib ki, Azərbaycan hökuməti 2007-ci ildə Ələt qəsəbəsində yeni müasir Limanın inşası haqqında qərar qəbul edib. Cari il mayın 14-də isə tikinti işləri tamamlanıb və Prezident İlham Əliyev yeni limanın açılışında iştirak edərək, onun fəaliyyətinə dair müvafiq tapşırıqlar verib.

Hazırda limanın illik aşırma potensialı 15 milyon ton yük, həmçinin 100 min TEU konteyner təşkil edir. Ən sonuncu texnoloji avadanlıqlar, müasir kranlar, konteyner və digər yükləri tez bir zamanda aşırmaq gücündə olan texnika ilə təmin olunan qurumda, əməliyyatlar avtomatlaşdırılıb. Nəticədə həm liman işçiləri, həm də yük sahibləri onlayn rejimdə yüklər ilə bağlı məlumat əldə edə bilirlər.

Nümayəndə heyətinin rəhbəri, Şenyan şəhər İqtisadiyyat və informasiya komitəsinin rəis müavini Ma An Lin Bakı Limanının baş direktoru Taleh Ziyadovu salamlayaraq, həm Bakı Limanı, həm də Azad İqtisadi Zonadan böyük gözləntilərinin olduğunu bildirib. O qeyd edib ki, "Ələt qəsəbəsində Azad İqtisadi Zonasının yaranması, Bakının beynəlxalq qovşağa çevrilməsi ölkə iqtisadiyyatına öz müsbət təsirini göstərəcək və bir çox sənaye sahələrinin inkişafında mühüm rolu oynayacaq."

Görüşün sonunda qonaqlar liman ərazisinə baxış keçiriblər və onları maraqlandıran suallara cavab verilib.

## Türkmənistan və Rumıniya Bakıdan keçməklə multimodal daşımalar məsələlərini müzakirə ediblər

***Türkmənistan və Rumıniya Bakıdan keçməklə multimodal daşımalar məsələlərini müzakirə ediblər.***



Aşqabadda Türkmənistan prezidenti Qurbanqulu Berdiməhəmmədovla Rumıniyanın xarici işlər naziri Teodor Meleşkanunun görüşündə Türkmənistan-Rumıniya qarşılıqlı əlaqələrinin perspektivləri müzakirə olunub.

"NEBİT-GAZ" qəzeti xəbər verir ki, tərəfdaşlığın prioritet istiqamətləri sırasında energetika və nəqliyyat-kommunikasiya sektorlarının adı çəkilib. Avrasiya qitəsində, o cümlədən Xəzər dənizi və Qara dəniz regionlarına daxil ölkələr arasında ticari-iqtisadi əlaqələrin fəallaşdırılması üçün geniş imkanlar olması qeyd edilib.

Bildirilir ki, Aşqabadda Türkmənistan-Rumıniya iqtisadi və elmi-texniki əməkdaşlığı üzrə birgə Hökumətlərarası Komissiyanın 2018-ci ilin aprel ayında keçirilmiş yeddinci iclasında energetika, neft və qaz, nəqliyyat, kənd təsərrüfatı, yüngül sənaye və yüksək texnologiyalar sahələrində ticari-iqtisadi əməkdaşlığın və tərəfdaşlığın inkişaf etdirilməsinin mümkünlüyü məsələləri müzakirə olunub. Tərəflər multimodal daşımaların təmin olunmasında Türkmənbaşı şəhərindəki beynəlxalq dəniz limanının imkanlarını da nəzərdən keçiriblər.

Türkmənistanın Dövlət Dəniz və Çay Nəqliyyatı Xidməti 2017-ci ildə Konstantsa limanına yüklərin, o cümlədən maye qazın daşınması imkanlarını öyrənib. Xüsusi konteynerlərdən istifadə edilməsi nəzərdə tutulan marşrut Türkmənbaşı limanından Xəzər dənizinə, sonra Bakı limanına , daha sonra dəmir yol nəqliyyatı ilə Batumiyə və ya Potiyə (Gürcüstan), nəhayət Qara dəniz vasitəsilə Rumıniyaya çatır.

# Azərbaycan Dövlət Dəniz Akademiyasının Təlim-Tədris Mərkəzinə media-tur təşkil olunub

***İyulun 18-də "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin Azərbaycan Dövlət Dəniz Akademiyasının Təlim-Tədris Mərkəzinə media-tur təşkil olunub.***

Media-turda jurnalistlərə Təlim-Tədris Mərkəzinin "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC sədrinin əmrinə əsasən dənizdə işləyən mütəxəssislərin hazırlanması və sertifikatlaşdırılması haqqında beynəlxalq standartların tələbləri nəzərə alınaraq yaradıldığı bildirilib. Mərkəzdə Dənizçilərin Sertifikatlaşdırılması üçün təlimlərin keçirilməsi, onların təcrübi məşğələləri və qiymətləndirilməsi xidmətləri göstərilir.

Təlim-Tədris Mərkəzi ən son model trenajor və dənizçilik avadanlıqları ilə təchiz edilmiş müasir auditoriyalardan ibarət iki mərtəbəli inzibati binada fəaliyyət göstərir.

Təlim-Tədris Mərkəzinin məqsədi DHDNÇ-78 əlavələr edilmiş Beynəlxalq Konvensiyaya uyğun olaraq, Beynəlxalq Dəniz Təşkilatının Model Kursları əsasında komanda heyəti və sıravi heyət üçün xüsusi təlim kursları, habelə ixtisasartırma və yenidən hazırlıq kurslarını yüksək keyfiyyətlə və təhlükəsiz şəkildə təşkil edilməsini təmin etməkdən ibarətdir.

Mərkəzin missiyası dənizçilərin və dənizdə işləyən heyətin peşəkarlıq səviyyəsinin artırılması, onların fəaliyyət sahəsinə dair dünya və beynəlxalq təcrübəni onlara aşılamaq və təlimləndirməkdən ibarətdir.

Media nümayəndələrinin diqqətinə çatdırılıb ki, son dövrlər mərkəzdə fəaliyyət prosesi daha da təkmilləşdirilib, yeni peşəkar işçi komandası formalaşdırılıb, tədris proqramları və dərs vəsaitləri standart formaya salınıb.

















Təlim-Tədris Mərkəzində ümumilikdə 55-ə yaxın təlim keçirilir. Bunlar da nəzəri və təcrübi hissələrə ayrılır. Təlim və kursların təcrübi hissələri trenajor və simulyatorla təchiz olunmuş otaqlarda, ixtisaslaşmış hovuzda və məşq poliqonlarında keçirilir. Eyni zamanda, mərkəzdə keçirilən kurslar "KSƏTƏMM-Təhlükəsiz üzmə kursları", "Rabitə vasitələri kursları", "Tanker kursları", "Dinamik mövqe saxlama kursları", "Kvalifikasiya kursları" və "Naviqasiya kursları" olmaqla xüsusiyyətlərinə görə 6 qrupa bölünür.

Həmçinin təcrübi məşğələlərin təmin edilməsi üçün Mərkəzdə "AT xilasetmə qayığı", "Xilasetmə sal "Wiking", "Qlobal Dəniz Fəlakət və Əmniyyətli Rabitə Sistemi (QDFƏRS)" (POSEİDON və TRANSAS firmasının istehsalı olan) trenajoru, "Qlobal Dəniz Fəlakət və Əmniyyətli Rabitə Sistemi (QDFƏRS)"-nin real avadanlığı, "Radar müşahidəsi və təsviri, avtomatik radar müşahidəsi vasitələrinin istismarı" (POSEİDON firmasının istehsalı olan) trenajoru, "Elektron Xəritə Displeyinin və İnformasiya Sistemlərinin İstismar Qaydaları" trenajoru, "Sürətli xilasetmə qayıq mütəxəssisi" (TRANSAS firmasının istehsalı olan) hazırlığı trenajoru avadanlıqları var.

Daha sonra Təlim-Tədris Mərkəzinə məxsus hovuz haqqında jurnalistlərə məlumat verilib. Bildirilib ki, sözügedən hovuz beynəlxalq standartların tələblərinə uyğun olaraq müasir avadanlıqlarla təchiz edilib. Bu, Azərbaycanda yeganə ixtisaslaşmış hovuzdur. Burada yerli və xarici mütəxəssislər üçün (dənizçilər) birbaşa suda sağqalma və üzmə, qəzaya uğramış helikopterlərdən təxliyə, növbətçi sal və qayıqlardan istifadə qaydaları kimi praktik məşğələlər keçirilir.

Mərkəz müxtəlif beynəlxalq təşkilatlardan sertifikatlar alaraq təlim keyfiyyətini yüksək səviyyəyə çatdırıb. Burada keçirilən təlimlər birbaşa Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Dövlət Dəniz Agentliyi və Amerika Gəmiçilik Bürosu (American Bureau of Shipping-ABS) tərəfindən akkreditasiya edilib. Təlim-Tədris Mərkəzi Beynəlxalq Keyfiyyət İdarəetmə Sistemi İSO 9001:2015 standartına uyğun fəaliyyətini təşkil edib və Bureau Veritas Beynəlxalq Sertifikatlaşdırma təşkilatı tərəfindən sertifikata layiq görülüb.

Bundan başqa, Böyük Britaniyanın nüfuzlu "The Nautical İnstitute" təşkilatının nümayəndə heyətinin 2017-ci ilin 6-7 iyul tarixlərində keçirdiyi yoxlamanın nəticələrinə əsasən "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin Azərbaycan Dövlət Dəniz Akademiyasının Təlim-Tədris Mərkəzinin Dinamik Mövqe Saxlama Simulyatoruna sertifikat verilib. Bu sertifikat "DP İnduction" və "DP Simulator" təlimlərinin keçirilməsinə şərait yaradır. Məlumat üçün bildirək ki, Dinamik Mövqe Saxlama Simulyatoru gəmi mövqeyini və gəminin istiqamətini saxlamaq üçün kompüter nəzarət sistemidir.

Beləliklə, hazırda Azərbaycan Dövlət Dəniz Akademiyasının Təlim-Tədris Mərkəzi dünyada "DP İnduction" və "DP Simulator" təlimlərinin keçirilməsinə səlahiyyəti olan 95 mərkəzdən biri, Azərbaycanda isə yeganə təşkilatdır.

# AZƏRBAYCAN XƏZƏR DƏNİZ GƏMİÇİLİYİ - 160

## U N U T S A Q ,   U N U D U L A R I Q

## Bir çox məsələləri yerindəcə həll edirdi



***Mustafa İmam Əli 1905-ci ildə Bakıda ziyalı ailəsində anadan olub. Hələ gimnaziyada oxuyarkən gəmilərlə ciddi maraqlanan Mustafa İmam Əli 1922-ci ildə orta təhsilini başa vuran kimi, Azərbaycan SSR-nin Mərkəzi İcraiyyə Komitəsinə müraciət edərək gəmi inşaatı üzrə xüsusi təhsil almaq üçün onu xaricə göndərməyi xahiş edib. Respublika Mərkəzi İcraiyyə Komitəsi Zaqafqaziya Xalq Komissarları Şurası qarşısında gəncin müvafiq təhsil alması üçün Almaniyaya göndərilməsi və həmin müddətdə ona təqaüdün ödənilməsi barədə vəkalət qaldırıb. Gənc Mustafa qərarı gözləyənədək vaxtını boş keçirməyib: alman dilini mükəmməl öyrənib, riyaziyyat və başqa texniki fənlər üzrə biliyini daha da artırıb. Nəhayət, Zaqafqaziya Xalq Komissarları Şurası qərar qəbul edib və Mustafa İmam Əli 1924-cü ildə gəmi inşaatı üzrə mühəndis olmaq arzusunu gerçəkləşdirmək üçün Berlinə yola düşüb.***

Berlində ən yaxşı tərsanələrin və gəmi inşaatı üzrə xüsusi təhsil ocaqlarının Kil və Danzinqdə yerləşdiyini öyrənən Mustafa hər şeydən öncə istehsalat təcrübəsi qazanmağın əhəmiyyətini nəzərə alaraq Kilə gedib. Burada beş il ərzində "F.Krupp" konserninə məxsus gəmi tərsanəsinin emalatxanalarında və "Klavitter" zavodunun gəmi inşası bürosunda təcrübə keçən fəhlə kimi çalışıb. Eyni zamanda Mustafa İmam Əli ali texniki məktəbin gəmi inşası şöbəsinə daxil olub. 1932-ci ilin iyun ayında imtahanlarını uğurla verərək, gəmi inşaatçısı-mühəndis diplomu ilə Vətənə dönüb.



Bakıya qayıtdıqdan sonra Mustafa İmam Əli "Xəzər donanması"nda mühəndis kimi fəaliyyətə başlayıb. Bir il sonra enerjili və təşəbbüskar mühəndis artıq gəmi-mexanika xidmətinin rəisi vəzifəsinə təyin edilib. Təcrübəli mütəxəssis o vaxt Gəmiçilikdə istismar olunan "Lenin", "Profintern", "Tsryupa" və "Ağamalı oğlu" kimi iritonnajlı tankerlərin ballast bölmələrində dəniz üzgüçülüyü üçün təhlükə yaratmadan neftin daşınması təklifini irəli sürüb. Bu, neft daşımalarını 20%-dək artırmağa imkan verib.

Mustafa İmam Əli əsas fəaliyyətindən əlavə, həm də dəniz nəqliyyatı donanması üçün yerli kadrların hazırlanması işinə böyük diqqət yetirib. Belə ki, Bakı dənizçilik texnikumunda "Gəmi nəzəriyyəsi"ndən bir neçə il dərs deyib. Ana dilində xüsusi dərsliklərə ehtiyacın olduğunu görərək, o dövrün əsaslı dərsliyi sayılan P.P.Şirşovun "Gəmi nəzəriyyəsi"ni tərcümə edib və elmi dəniz terminalogiyasını Azərbaycan dilində işləyib hazırlayıb.

Təəssüflər olsun ki, Mustafa İmam Əlinin qüsursuz işinə baxmayaraq, 1937-1938-ci illərin repressiyası ondan da yan keçməyib. O zaman xaricdə təhsil almış bir çox mütəxəssislər kimi Almaniyada işləyib-oxumuş Mustafanı da həbs ediblər. Həbsxanada Mustafa oğlunun anadan olduğu, lakin qısa bir zamanda xəstələnib-öldüyü barədə sarsıdıcı xəbər alıb.

Böyük Vətən müharibəsinin başlanması Mustafa İmam Əlinin həbsxana həyatına son qoyub. Dəniz nəqliyyatı sahəsində onun kimi zəngin təcrübəli və dərin biliyə malik mütəxəssisə həddən artıq tələbat olduğundan, Mustafanı həbsdən azad edərək yenidən öz işinə bərpa ediblər.

Müharibənin çətin sınaq illərində Mustafa İmam Əlinin xidmətləri əvəzedilməz olub. Bu, danılmaz faktdır. Həmin dövrdə vaxt və şəraitlə hesablaşmadan cəbhəyə ən müxtəlif yüklərin – yanacağın, hərbi texnika və silah-sursatın, habelə hərbi hissələrin və təxliyyə olunmuş insanların fasiləsiz daşınmasını həyata keçirmək, eyni zamanda gəmilərin təmirini və ya yenidən qurulmasını icra etmək lazım gəlirdi.

Mustafa İmam Əli həmin illərdə demək olar ki, vaxtını ancaq gəmi təmiri zavodlarında və Xəzər hövzəsinin limanlarında keçirib. Strateji yüklər daşıyan gəmilər kütləvi aviahəmlələrə məruz qaldığından, Mustafa çox vaxt təyyarə ilə gəmilərin zədələndiyi yerə gedərək, onların təmiri məsələsini yerində həll edib.

Müharibənin sonunda Mustafa İmam Əli mühəndis-mayor rütbəsində Sovet İttifaqının Dəniz Donanması Nazirliyindən göndərilən əməli qrupun tərkibində Avstriya və Macarıstana gedərək, xüsusi tapşırığın icrası ilə əlaqədar İttifaq Nəzarət Komissiyasının sərəncamında olub. 1945-ci ilin 30 aprelindən 1946-cı ilin 15 iyununadək Vyana və Budapeştdə Sovet Dunay Gəmiçiliyi üçün gəmilərin hazırlanıb təchiz edilməsi, Dunay Hərbi Nəqliyyat İdarəsində isə batmış gəmilərin çayın dərinliyindən qaldırılması işlərinə rəhbərlik edib.

Xüsusi tapşırığın icrasından sonra Mustafa İmam Əli Latviya Gəmiçiliyinə göndərilib. Öz ailəsi Riqada yaşayan görkəmli gəmi inşaatı mütəxəssisi sonrakı illərdə işi ilə əlaqədar Leninqrad şəhərinə göçərək ömrünün sonunadək burada yaşayıb. On il Baltik Gəmiçiliyinin Mərkəzi Layihə-Konstruktor Bürosunda və daha on il keçmiş Sovet İttifaqı məkanında gəmi inşaatı üzrə ən nüfuzlu təsisatda - Akademik A.H.Krılov adına Mərkəzi Elmi-Tədqiqat İnstitutunda baş konstruktor vəzifəsində çalışıb. Mustafa İmam Əli həmin illərdə onlarla elmi iş görüb, müxtəlif ixtiralar edib. Bakı – Krasnovodsk (indiki – Türkmənbaşı) gəmi-bərə keçidində ilk səfərə məhz Mustafa İmam Əlinin layihələndirdiyi "Sovet Azərbaycanı" gəmi-bərəsi çıxıb. Böyük dəniz layneri "İvan Franko", iritonnajlı "Sofiya" tipli tanker və digər gəmilərin layihələrinin də müəllifi Mustafa İmam Əli olub. Müxtəlif illərdə A.A.Jdanov adına Qorki Politexnik İnstitutunun, Odessa Dəniz Donanması Mühəndisləri İnstitutunun, Leninqrad Gəmi İnşası İnstitutunun gəmi nəzəriyyəsi şöbəsi tələbələrinin diplom layihəsinə və istehsalat təcrübəsinə rəhbərlik edib.

Peşəsinin bütün incəliklərinə dərindən bələd olan Mustafa İmam Əli dəfələrlə SSRİ Dəniz Donanması Nazirliyi tərəfindən məsləhətçi və ekspert kimi tərsanələrində İttifaq üçün sifarişlə yeni gəmilər inşa edən xarici ölkələrə ezam olunub. Mustafa İmam Əli kadr hazırlığına da həmişə ciddi fikir verib, onun yetirmələri – çoxsaylı mütəxəssis-konstruktorlar öz müəllimlərinin işini uğurla davam etdiriblər, onlardan bir çoxu SSRİ Dəniz Donanması Nazirliyinin müəssisə və idarələrində aparıcı vəzifələrə irəli çəkilib.

Görkəmli mütəxəssis, nəcib insan olan Mustafa İmam Əli 1978-ci ildə 73 yaşında dünyasını dəyişib. Ölkənin dəniz donanmasının inkişafına sanballı töhfələr vermiş Mustafa İmam Əli böyük ehtiramla Pulkovo qəbiristanlığının Albalı xiyabanlığında dəfn edilib.

## İlk azərbaycanlı qadın gəmi kapitanı



***Şövkət Şahbaz qızı Səlimova 1920-ci il dekabrın 25-də indiki İsmayıllı (o zaman Şamaxı uyezdi) rayonunun Lahıc kəndində anadan olub. Atası Şahbaz kişi sonradan çoxuşaqlı ailəsi ilə Bakının Şubanı kəndinə köçüb.***

Onuşaqlı ailənin ilki olan Şövkət məktəbli ikən aviamodelçilər dərnəyinə üzv yazılıb. 1935-ci ildə Moskvada aviamodelçilərin toplanışında iştirak edərkən, hazırladığı model hamısından uzağa uçaraq ümumittifaq rekordu yeniləyib və daha üç il ona birinciliyi əldə saxlamaq imkanı verib. Bundan sonra Ş.Səlimova planerdə ilk uçuşunu həyata keçirib. Lakin təsadüf onun peşə seçimini dəyişdirib.

Jurnalda ilk qadın uzaq səfərlər kapitanı Anna Şetininanın fotosunu gördükdən sonra o da kapitan olmaq qərarına gəlib və məktəbdə təhsilini başa vuran kimi sənədlərini Bakı Su Nəqliyyatı Texnikumunun "Gəmi sürücüsü" fakültəsinə verib. Əmək fəaliyyətinə Odessa Dəniz Gəmiçiliyinin uzaq səfərlərə çıxan "Serqo" gəmisində kapitanın üçüncü köməkçisi kimi başlayıb və tezliklə öz dəyanəti, əzmi, biliyi və qətiyyəti ilə heyətin dərin hörmətini qazanıb. Bakıya qayıdan Ş.Səlimova Xəzər Gəmiçiliyinin gəmilərində kapitan işləyib. Müharibə başlayanda "Dnepr" gəmisinin kapitanı olub. Odlu-alovlu illərdəki şücaəti "Qırmızı Ulduz" ordeni, "Qafqazın müdafiəsinə görə" və "1941-1945-ci illərdə Böyük Vətən müharibəsində Almaniya üzərində qələbəyə görə" medalları ilə qiymətləndirilib.

Müharibədən sonra Şövkət xanım daha üç il sevdiyi peşəsi ilə məşğul olub. 1948-ci ilin sentyabrın 11-də onu respublika ali partiya məktəbinə oxumağa göndəriblər. 1950-ci ildə həm partiya məktəbini, həm də ekstern yolu ilə Azərbaycan Xalq Təsərrüfatı İnstitutunu bitirib. Azərbaycan KP MK-da təbliğat-təşviqat şöbəsinin müdiri işləyib. 1954-cü ildə Azərbaycan Dövlət Heft və Kimya İnstitutunda müəllimlik fəaliyyətinə başlayıb. Mühəndis-iqtisad fakültəsinin dekanı, prorektor olub. Dissertasiya müdafiə edərək iqtisad elmləri namizədi alimlik dərəcəsi alıb. 1971-ci ildə "Azərbaycanın Əməkdar iqtisadçısı" fəxri adına layiq görülüb. Dosent Ş.Səlimova Ü.Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasında marksizm-leninizm kafedrasının müdiri işləyib, uzun illər "Bilik"cəmiyyəti Bakı təşkilatı sədrinin müavini olub.

Azərbaycanın ilk qadın gəmi kapitanı Şövkət Şahbaz qızı Səlimova 1999-cu ildə haqq dünyasına qovuşub.

***Sevda ABDULLAYEVA,***
***İctimaiyyətlə əlaqələr departamentinin mütəxəssisi***

## S U D A   Ə Y L Ə N C Ə L Ə R

***Azərbaycanda mayda başlayan və sentyabrın sonunadək davam edən çimərlik mövsümündə dəniz istirahətinin bütün növlərindən zövq almaq üçün əlverişli imkan mövcuddur. Dayvinq, kaytserfinq, skuter sürmək və digər aktiv su istirahəti növləri ölkəmizdə geniş yayılıb. Çoxlu sayda bol sulu və kiçik çaylarda raftinq və kayakinq kimi su əyləncələri üçün gözəl şərait var.***

Aktiv su istirahətindən müsbət emosiyalar almaq üçün heç də peşəkar idmançı olmaq lazım deyil, sadəcə üzməyi bacarmaq, minimal fiziki hazırlıq və yeniliyi hiss etmək həvəsi kifayətdir.

### Raftinq

Raftinq rəvan axan sulardakı sakitliyin qısa müddətdə gur axınla mübarizəyə keçməsi ilə qeyri-adi emosiyalar yaşadan heyrətamiz aktiv istirahət növüdür.



Azərbaycanın bölgələrində raftinqlə məşğul olmaq üçün çoxlu sayda gur axını olan dağ çayları var. Bir çox turizm agentlikləri, məsələn "Improtex Travel" bu sahədə müxtəlif turlar təklif edir.

### Dayvinq

Aktiv istirahətin ən əyləncəli növlərindən bir olan dayvinq zəngin flora və faunaya malik Xəzər dənizinin dibinə dalma zamanı xüsusilə maraqlı olur.



İlk dalma zamanı turistlərə təlimatçının rəhbərliyi ilə tanışlıq xarakterli ekskursiya təklif olunur. Uzunmüddətli və ciddi dalmalar üçün təcrübə və təlimin olması lazımdır. Ətraflı məlumat üçün "FAIREX" assosiasiyasına, "Delfin", "Gilavar" klublarına müraciət etmək olar.

### Hidrosikl



Akvabayk, yaxud hidrosikl adı ilə təqdim olunan su motosikleti Azərbaycanda yay mövsümündə dənizdə ən geniş yayılmış əyləncə vasitəsidir. Geniş sahil xətti, çoxlu çayı və gölləri olan ölkəmizdə bu universal su nəqliyyatından həm rahat istirahət həvəskarları, həm də ekstremal turizmi sevənlər istifadə edə bilərlər.

Yayda Abşeronun və Nabranın bir çox çimərliklərində hidrosikl kirayələmək olar. Yeni təəssüratlar yaradacaq bu əyləncəli macəradan zövq almaq imkanını əldən verməyin.

Ətraflı məlumat üçün "Victory Tour" və digər turizm agentliklərinə müraciət edin.

### Kaytserfinq

Əyləncəli aktiv su istirahəti növlərindən biri də kaytserfinq (ingiliscə uçan ilan və "dalğada süzmək" sözlərinin birləşməsi), yaxud kaytinq adlanan su idmanıdır. Kaytserfinq "uçan ilan" deyilən idmançının (kaytın) dartı qüvvəsinin təsiri ilə suyun səthində dalğaları aşmaq və üzərində durduğu lövhəni idarə etməklə müşayiət olunan hərəkətidir.

Azərbaycanda kaytserfinqin inkişafı üçün mükəmməl şərait var. Məsələn, bu istirahət növünün həvəskarları Xəzərin Xızı rayonu Şuraabad qəsəbəsi sahilindəki "Blue Planet" çimərliyində özlərini sınaya bilərlər. Burada kaytserfinq məktəbi və kayt-mağaza da fəaliyyət göstərir.



"White Wind" məktəbinin fəaliyyət göstərdiyi "Kite.az" klubu da kaytserfinqlə məşğul olur. Klubun üzvləri bu məqsədlə Yeni Yaşma qəsəbəsindəki laqunu, habelə Dübəndi qəsəbəsində yaxın dəniz sahilini və Nardaran qəsəbəsindəki "Sea Breeze"in sahilini tövsiyə edirlər.

"Kite.az", "Gilavar", "Blue Planet" klubları turların təşkilində sizə kömək edə bilər.

### SUP serfinq



Kaytserfinqin həddindən artıq dinamik olduğunu qəbul edənlər və daha sakit tempi üstün tutanlar, yaxud sadəcə kaytserfinqdən sonra istirahət etmək istəyənlər SUP serfinqlə (sapserfinq) məşğul ola bilərlər. Serfinqin bu növü sizə lövhənin üzərində dayanaraq və kürəklə avar çəkərək hərəkət etməkdən zövq almaq imkanı verəcək.

SUP serfinq küləksiz havada daha əlverişli olub, tarazlığın və orqanizmin ümumi vəziyyətinin yaxşılaşdırılması üçün əla məşqə zəmanət verir. Eyni zamanda, bu aktiv istirahət növü əyləncəli və sadədir. Təsadüfi deyil ki, SUP serfinq dünyada ən populyar su məşğələsi növlərindən biridir.

Azərbaycanda SUP serfinqlə məşğul olmaq üçün ən yaxşı şərait Xızı rayonunun Şuraabad qəsəbəsində mövcuddur. Turların təşkilində kömək üçün "Blue Planet" klubuna müraciət edə bilərsiniz.

### Balıq ovu

Azərbaycanın tükənməz təbii sərvətləri, o cümlədən Xəzər dənizinin, çoxsaylı çayların, göllərin və su hövzələrinin bioloji ehtiyatları ilin bütün mövsümlərində balıq ovu həvəskarları üçün əlverişli şərait yaradır.

Xəzər dənizində Pirallahı adası, Neftçala, Lənkəran, Siyəzən, Xaçmaz (Nabran) bölgələrində dəniz akvatoriyası, Mingəçevirdə Kür çayının və su anbarının, həmçinin Şəmkir su anbarının ehtiyatları balıq ovu həvəskarları



üçün əlverişli yerlərdir. Şamaxıdakı Sakit Göldə yerləşən özəl təsərrüfatlar da balıq tutmaq üçün münasibdir. Oğuzdakı Xal-Xal şəlaləsi xüsusi olaraq qeyd edilməlidir: bu ərazidə fəaliyyət göstərən "Forel" ailəvi istirahət bazasında bir neçə süni su hövzəsi və balıq tutmaq üçün hər cür şərait var. Həmçinin Mingəçevir şəhərinin mərkəzindəki körpüdə balıq tutmaqla yanaşı, Kür çayında da ayrıca balıq ovu etmək olar. Belə ki, çayın sahilində yerləşən "Riverside" otelində hər cür şərait var.

***Emil Eyyubov***

# İtaliya Liviyanın sahil-mühafizə xidmətinin gücləndirilməsinə yardım edəcək




***İtaliya miqrant ticarətinə son qoymaq üzrə cəhdləri gücləndirmək üçün Liviyaya 10 motorlu qayıq və 2 gəmi verəcək.***

Həmçinin gəmilərin xidməti və Liviya hərbi-dəniz donanması, sahil-mühafizə heyətinin təlimi üçün iki il ərzində 1,4 milyon avro ayrılması da nəzərdə tutulur.

Miqrant böhranı ilə üzbəüz qalan İtaliya miqrant axınının dayandırılmasına yardım etmək məqsədilə artıq Liviyanı digər hərbi-dəniz silahlanmaları ilə təchiz etdiyi bildirilir.

Bununla yanaşı, Maltada qeyri-hökumət təşkilatına məxsus "Sea watch" miqrant xilasetmə gəmisi saxlanılıb.

İtaliya Aralıq dənizində miqrantları xilas edən qeyri-hökumət təşkilatlarının limanlarını bağlamağa başlayıb. Xilasedici gəmilərdən ikisi İspaniyaya, biri isə Maltaya yollanmaq məcburiyyətində qalıb.

***Asiman Əsədov***

# İran Hörmüz boğazından neft tankerlərinin keçməsinə icazə verməyə bilər

***İran neftinin satışına maneələr olacağı təqdirdə Hörmüz boğazından neft tankerlərinin keçməsinə icazə verilməyəcək.***



AZƏRTAC xarici KİV-lərə istinadla xəbər verir ki, bu barədə İslam İnqilabı Keşikçiləri Korpusunun (SEPAH) rəis müavini İsmayıl Kövsəri deyib.

O bildirib ki, İran neftinin satışına maneələr yaradılacağı təqdirdə onlar Hörmüz boğazından digər ölkələrin neft tankerlərinin keçməsinə icazə verməyəcək.

Xatırladaq ki, ABŞ Xarici İşlər Nazirliyinin Siyasi Planlaşdırma direktoru Brian Hook ötən günlərdə keçirdiyi mətbuat konfransında İrana qarşı təzyiqlərin məqsədinin bu ölkənin neft gəlirlərini sıfıra endirərək Tehran rəhbərliyinin bölgədəki siyasətini dəyişdirməsini təmin etmək olduğunu bildirib: "Hədəfimiz İran rejiminə qarşı təzyiqi artıraraq neft satışlarını sıfıra endirmək. Bunun qlobal bazara təsirini ən aşağı səviyyəyə endirmək üçün çalışırıq. Lakin qlobal səviyyədə kifayət qədər neft ehtiyatının olduğuna şübhəmiz yoxdur".

"İran strategiyamız rejim dəyişikliyinə deyil, iranlı liderlərin bölgədəki strategiyasını dəyişdirməyə istiqamətlənib. İranın neft gəlirlərini sıfıra endirmək istəyirik", - deyə o əlavə edib.

İran Prezidenti Həsən Ruhani isə ABŞ rəsmisinin bu sözlərinə münasibət bildirərək deyib: "Bu əsla real olmayacaq boş sözlərdir. ABŞ səlahiyyətlilərinin bu açıqlamaları enerji və ticarət üzrə bütün beynəlxalq qaydalara ziddir".

Qeyd edək ki, ABŞ müttəfiq ölkələr və şirkətlərdən İrandan neft idxalını noyabrın 4-dək dayandırmağı istəyib. ABŞ-dan bir heyətin bu həftə Orta Şərqdə fərqli ölkələrə səfər edərək İran neftinə yönələn sanksiya qərarına dair danışıqlar aparması gözlənilir.

# YARIZARAFAT, YARIGERÇƏK

**Mən daha toylara getmirəm. Həkim deyib ki, sağlamlığı qorumaq lazımdır.**

**Bir imkanlının neçə dostu vardı. İndi heç biri yoxdur. İmkan o imkan deyil.**

**Bəzi adamlara elə gəlir ki, heç kim heç nə görmür. Hətta gözləri çox yaxşı görənlər də.**

**İtirdiklərini geri qaytarmaq istəyən, inamını itirməməlidir.**

**Ət bahalaşdıqca əttökənlər niyə çoxalır?**

**Hətta Allaha da savadlı və ağıllı adamlar lazımdır.**

**Yanılmaq istəmirsənsə, hər kəsə etibar etmə.**

**Ətrafımda onlarla adam olanda da, mən həmişə tənha olmuşam.**

**Bir adamın ağıllı olub-olmadığını müəyyən etmək belə çətindir?**

**Özləri inkişaf etməyənlər heç nəyi inkişaf etdirə bilməzlər.**

**Bəzilərinə qulaq asmayanda adam əməlli-başlı kökəlir.**

**Sənə satqın lazımdır? Mənə də yox.**

**Bəxtin gətirib. Bəyənmədiklərimi adətən böyüdürlər.**

**Yalnız yıxanlar dəyişir. Yıxma qaydaları adətən dəyişmir.**

**Hər kəs nə az-nə çox, özünə yaraşan hərəkətlər edir.**

**Yalnız saya bildikləri üçün özlərini çox ağıllı sayan adamlar var.**

**Düz qoyulmayan sualın cavabı da düz olmaz.**

**Dollar yıxan evi hər valyuta tikə bilməz.**

**Baş işlənəsi yerdə ayaqları mənasız yerə gücə salmaq lazım deyil.**

**Bir dəlinin bir quyuya atdığı daşı min ağıllı həmişə çıxara bilmirsə, gör indi quyularda nə qədər daş var.**

**Arxamızca adətən fərasətsizlər danışırlar. Ona görə nə danışdıqları barədə çox da narahat olmayın.**

**Öz yükünü götürə bilməyən minnət götürər.**

**Kiməsə xoş gələn işlərdənsə öz işini gör.**

**Dişinə yaxşı baxmayanın dişi, başını yaxşı işlətməyənin başı ağrıyar.**

**Ümid yeganə şeydir ki, bu gün var, sabah da olacaq. Ümid yalnız həyat olmayanda olmayacaq.**

**O əvvəllər idi, ... pendiri dəri saxlayırdı. İndi çox adam öz başını saxlaya bilmir.**

**Əvvəllər yalanla birtəhər baş girləyənlər indi az qalır baş sındırsınlar.**

**Qaradan başqa rəng tanımayanların qanımızı qaraltmağında təəccüblü nə var?**

**Ürəyim istədiyi kimi yazanda bir çoxlarının məndən, yazmayanda isə özümün özümdən zəhləm gedir.**

**Dünyaya mədəsinin gözü ilə baxanın gözlərinə hər şey yeyiləsi şeylər kimi görünər.**

**Özündə ancaq müsbət şeyləri görən inkişaf etməz. İnkişaf üçün mənfilikləri də görmək lazımdır.**

**Mən həqiqətlə dost olandan dostlar bizdən gen gəzir.**

**Adam var, özündən başqa kimə desən, oxşayır.**

**Ağlı olmayanlar onu itirmək qorxusu ilə üzləşmirlər.**

**Həyata əyləncə kimi baxanlar əylənir, baxmayanlar ən azı əylənmirlər.**

**Anaların göz yaşını tökmək Allahı incitməkdir.**

**Təslim deyilsənsə, məğlub olmamısan.**

**Məndən neçə addım öndə o qədər adam var ki, geri qayıtsalar, ayaq altda qalaram.**

**Cənnətə gedən bütün yollar işıqlı olsa da, çoxu niyə cəhənnəmin zülmətli yollarını seçir?**

**Yaxşı ki, hər kəsə əməllərinə görə ad qoyulmur.**

**Görəsən yaxşılıq etməyi bacarmayanlar hansı bacarıqlarına görə dəyərləndirilir?**

**Başı uca gəzmək istəyən tamahının başından basmalıdır.**

**İndi qarın qardaşdan o qədər irəlidədir ki, geriyə boylananda da, qardaş gözə dəymir.**

**Yalan insanı həqiqət olan yerdən başqa, hara desən aparar.**

**Quş buraxmayanın, nə yuvanın quşu olduğunu hardan biləsən?**

**Həqiqətin əlindən tut ki, yalan səni dartıb bağrına basa bilməsin.**

**Oğurluqla çox şey əldə etmək olar, əldə saxlamaq olmaz.**

**Ağlı kəsməyənlərin əlinə kəsici heç nə vermək olmaz.**

**Adamları həqiqəti danışmağa məcbur etməyin ən asan yolu yalanlarına qulaq asmamaqdır.**

**Maraqlıdır, bəziləri bu qədər enerjini hardan alırlar ki, yaltaqlığa həmişə hazırdırlar.**

**Bəzi verilişlərə baxanda aparıcıların nəyə güldüklərini başa düşmədiyimdən lap ağlamağım gəlir.**

**Demirəm ki, həmişə həqiqəti söylə. Amma bilmək istəyirəm, hansı məzhəbə qulluq edirsən ki, heç arabir də olmaz?**

***Rasif TAHİROV***

# Qırx bir nəfərin taleyindən hələ də xəbər yoxdur



***İndoneziyanın Cənubi Sulavesi əyalətinin sahillərində bərənin qəzaya uğraması nəticəsində həlak olanların sayı 29-a çatıb. Onların arasında uşaqların da olduğu bildirilir. Qırx bir nəfərin taleyindən isə hələ də xəbər yoxdur.***

Sinxua informasiya agentliyi xəbər verir ki, bu barədə məlumat ölkənin xilasetmə xidməti tərəfindən verilib.

Qeyd edək ki, qəza zamanı bərənin göyərtəsində 139 sərnişin, 48 avtomobil və motosiklet olub. Qəzanın baş verdiyi ərazidə axtarış-xilasetmə işləri davam edir.

Təbii fəlakətlərin aradan qaldırılması üzrə milli agentliyin məlumatına əsasən, bərənin korpusunun sol tərəfində sızma aşkarlanıb.

# Qayıqlarda ümumilikdə 130 turist olub





***Tailand sahilində iki qayığın batması nəticəsində 18 turist həlak olub.***

Həlak olanların cəsədləri suyun üzərində aşkarlanıb. Təxminən 40-dan çox turist itkin hesab edilib. Qayıqlarda ümumilikdə 130 turist olub. Axtarış xilasetmə işləri davam edir.

Xatırladaq ki, keçən həftə Tailandın Phuket adası sahilində fırtına nəticəsində turist daşıyan qayıqların ikisi aşıb. Dalğanın hündürlüyünün 5 metrə çatdığı qeyd edilib.

# Qayığın qəzaya uğraması nəticəsində 63 mühacir itkin düşüb



***Mühacirləri daşıyan qayığın Aralıq dənizinin Liviya sahilləri yaxınlığında qəzaya uğraması nəticəsində 63 nəfər itkin düşüb.***

Ölkənin Hərbi Dəniz Qüvvələrinin nümayəndəsi hadisə zamanı qəzaya uğrayan qayığın göyərtəsində 104 mühacirin olduğunu bildirib.

Bununla yanaşı, sahil-mühafizə xidməti 3 qayıqdan 276 nəfəri, o cümlədən batan qayıqdan 41 nəfəri xilas etməyə müvəffəq olub. Onların arasında bir neçə ölkənin vətəndaşlarının olduğu bildirilir.

Qeyd edək ki, Afrika və Yaxın Şərq ölkələrində baş verən bir sıra silahlı münaqişə və iqtisadi problemlər səbəbindən Avropa II Dünya müharibəsindən bəri ən böyük miqrasiya böhranı ilə üzləşib. Beynəlxalq Miqrasiya Təşkilatının məlumatına əsasən, 2018-ci ilin əvvəlindən iyunun 20-dək dəniz yolu ilə Avropaya 41 min mühacir gəlib. Bu yolla ölkəsini tərk etməyə cəhd göstərən 960 nəfər isə Aralıq dənizində həyatını itirib. 2017-ci ilin analoji dövrü ərzində Avropaya 85 minə qədər mühacir gəlmiş, 2133 nəfər dənizdə batmışdı.

# Yaponiya "Aegis" sistemli gəmilərin döyüş növbəsi barədə əmri ləğv edib

***Ötən ay keçirilən ABŞ-Şimali Koreya sammitindən sonra təhlükəsizlik sahəsində gərginliyin azaldığı bir vaxtda Yaponiyada "Aegis" sistemi ilə təchiz edilən gəmilərin döyüş növbəsinin ləğv olunması barədə əmr verilib.***




NHK telekanalı xəbər verir ki, Şimali Koreyadan gözlənilən təhlükə müqabilində Yaponiya Yapon dənizində göyərtəsində "Aegis" radar sistemi olan esmineslərin döyüş növbəsini təşkil etmişdi. Həmin gəmilər bütün sutka ərzində fasiləsiz növbə çəkirdilər.

Yaponiya Müdafiə Nazirliyi bildirib ki, bu barədə əmr iyunun sonlarında verilib.

Bununla yanaşı, Müdafiə Nazirliyinin özünümüdafiə qüvvələrinə ölkə ərazisinə yaxınlaşan istənilər raketi vurmaq barədə əmri hələ də qüvvədə qalır.

Həmçinin nazirlikdən bildiriblər ki, vəziyyət dəyişəcəyi təqdirdə həmin gəmilər yenidən döyüş növbəsinə qaytarılacaq.

***Vüqar Ağayev***

# İki nəhəng neft emalı şirkəti birləşəcək

***Yaponiyanın iki nəhəng neft emalı şirkəti "Idemitsu Kosan" və "Showa Shell Sekiyu" birləşmə barədə razılığa gəliblər.***




NHK telekanalı xəbər verir ki, iki şirkət arasında üç ildən çoxdur davam edən danışıqlar, nəhayət, müsbət nəticə verib və onlar gələn ilin aprelində birləşmək qərarına gəliblər.

Danışıqların uzanmasına səbəb kimi "Idemitsu" şirkətinin əsasını qoymuş ailənin bu birləşməyə qarşı olması göstərilir.

Əldə edilən razılaşmaya görə, "Showa Shell" şirkəti səhmlərin mübadiləsi müqabilində "Idemitsu" şirkətinin filialına çevriləcək.

Xatırladaq ki, həmin şirkətlər ilk dəfə 2015-ci ildə birləşmək niyyətində olduqlarını bildirmişdilər. Lakin həmin vaxt səhmlərin əksəriyyətinə malik olan İdemitsu ailəsi bu addımın qarşısını almışdı.

# Avropa Komissiyası saat əqrəblərinin çəkilməsi barədə açıq məsləhətləşmələrə başlayıb



***Avropa Komissiyası Litva və Finlandiyanın vətəndaşlarının müraciətlərini nəzərə alaraq, saat əqrəblərinin çəkilməsi barədə açıq məsləhətləşmələrə başlayıb. Komissiya Avropa İttifaqının yay vaxtı barədə indiki sazişlərinin necə işlədiyini nəzərdən keçirmək və bu sazişləri dəyişməyin gərəkli olub-olmadığını araşdırmaq qərarına gəlib.***

Komissiya Aİ-nin yay vaxtı haqqında indiki sazişləri və bu sazişlərə edilməsi mümkün olan hər hansı dəyişikliklər barədə avropalıların, əlaqədar subyektlərin və üzv dövlətlərin rəyini öyrənmək istərdi. İyulun 4-də başlayan ictimai məsləhətləşmələr avqustun 16-dək davam edəcək.

Komissiya vurğulayır ki, ikinci alternativ – yay vaxtının ləğv edilməsi də mümkündür. Bunun üçün Aİ-nin üzvü olan dövlətlərin böyük əksəriyyəti həmin qərarın lehinə olmalıdır.

Litva Avropa Komissiyasına və Aİ üzvlərinə ünvanladığı məktubda yay və qış vaxtlarına keçidə yenidən baxılmasının zəruri olması barədə mövqeyini şərh edib. Bu məsələ Aİ-nin nəqliyyat, infrastruktur və kommunikasiyalar üzrə şuralarının iclaslarında dəfələrlə qaldırılıb. Litvanın Baş naziri Saulyus Skvernyalis də Aİ dövlətlərinin hökumət başçıları və Aİ-nin yüksəkvəzifəli şəxsləri ilə görüşlərdə həmin mövzunu müzakirə edir.

***Nigar Cəfərli***

DƏNİZ

20 iyul 2018-ci il № 53-56 (9239)

# Yelkənli İdman Federasiyasının yelkənçiləri Azərbaycanı Avropa çempionatında uğurla təmsil ediblər










***Haaqada Sxeveningen dəniz limanında "Optimist" sinfi üzrə Avropa çempionatı keçirilib. İyunun 23-dən 30-dək Optimist Avropa Çempionatı mükəmməl yelkən şəraitində baş tutub.***

Azərbaycan Yelkənli İdman Federasiyasından bildirilib ki, yelkənçilərimiz Avropa çempionatında ölkəmizi müvəffəqiyyətlə təmsil ediblər.

Çətin hava şəraitinə baxmayaraq yelkənli və digər su idmanlarına həsr olunan Avropa çempionatında uğurla iştirak edən yelkənçilərimizin yarışlarda fədakar iştirakı beynəlxalq səviyyəli məşqçilərin diqqətini cəlb edərək xüsusi rəğbətlə qarşılanıb. Təcrübəli və dünya şöhrətli yelkənçilərin iştirak etdiyi Avropa çempionatında yelkənçilərimizin Azərbaycanı təmsil etməsi və idmançılarımızın uğurlu iştirakı gələcəkdə də bu cür yarışlara daha əzmlə hazırlaşmağa əsas verir.

"Optimist" sinfi üzrə keçirilən Avropa çempionatında Azərbaycanı yelkənçilərimiz Ayla Babayeva, Murad Allahverdi, İsmayıl Kərimov, Murad İsmayılov, Murad Hacızadə, Kristina Kərimova, heyətin rəhbəri Burcu Algon Giorgianni, "Optimist" sinfi üzrə baş məşqçi Seyhun Yıldız təmsil ediblər.

Xatırladaq ki, aktiv bazası 2014-cü ildən etibarən fəaliyyətə başlayan Azərbaycan Yelkənli İdman Federasiyasının əsas məqsədi hər zaman maddi texniki bazanı gücləndirmək, məşqçi korpusunu formalaşdırılmaq, komandaya yeni idmançıları cəlb etmək olub. Azərbaycan Yelkənli İdman Federasiyasında hazırda "Optimist" və "Laser" sinifləri üzrə iki komanda formalaşıb. Bu siniflər üzrə ayrı-ayrılıqda, xaricdən dəvət edilən 2 baş məşqçi fəaliyyət göstərir. Məhz xaricdən dəvət edilən idman menecerləri, yüksək göstəricilərə malik mütəxəssislərin köməyi ilə komandaların məşqləri keçirilir.

Məqsədlərə çatmaq üçün Federasiya tərəfindən qabaqcıl Avropa şirkətlərindən yelkənli idman üzrə qayıqların gətirilməsi, eyni zamanda qısa müddət ərzində beynəlxalq səviyyəli məşqçilərin Azərbaycana dəvət edilməsi təmin edilib. Bu addımların davamı olaraq 31 may – 3 iyun tarixlərində də Yelkənli İdman Federasiyasının komandasının hazırlığı, o cümlədən yerli məşqçilərin təcrübə qazanması məqsədilə təlim düşərgəsi təşkil olunmuşdu. Məşqlərin yüksək keyfiyyətli olması və bu istiqamətdə peşəkarlığın artırılması məqsədilə beynəlxalq səviyyəli məşqçi, 6 dünya və 4 Avropa çempionatının qalibi, 30 il məşqçi kimi fəaliyyət göstərən Dragan Gasic Yelkənli İdman Federasiyası tərəfindən təlimə cəlb edilmişdi.

Yelkənli İdman Federasiyasının gənc yelkənçisi Kristina Kərimova Sloveniyada keçirilən "Easter Regatta" adlı beynəlxalq yarışda 139 idmançı arasında 4-cü yerdə qərarlaşaraq yüksək nəticə göstərmişdi.

# FIFA dünya çempionatında iştirak edən komandaların mükafatını açıqlayıb




***Rusiyada keçirilən dünya çempionatındakı qələbə Fransa millisinə FIFA tərəfindən 38 milyon dollar pul mükafatı qazandırıb.***

FIFA-nın rəsmi saytı xəbər verir ki, dünya çempionatının ümumi mükafat fondu 400 milyon dollar təşkil edib. Mundialın gümüş mükafatçısı Xorvatiya millisi 28 milyon dollar gəlir əldə edib. Üçüncü yeri tutan belçikalılar 24, İngiltərə yığması isə 22 milyon dollar qazanıb.

Həmçinin dünya çempionatının "play-off" mərhələsinin digər iştirakçılarının da qazandığı məbləğ açıqlanıb. Dörddəbir final mərhələsində mübarizəsini dayandıran Rusiya millisi, İsveç, Braziliya və Uruqvay komandaları 16 milyon dollar, səkkizdəbir finalda turniri tərk edən İspaniya, Danimarka, İsveçrə, Kolumbiya, Argentina, Meksika, Portuqaliya və Yaponiya komandaları isə 12 milyon dollar qazanacaqlar.

FIFA qrup mərhələsindəki iştirakçıların hərəsinə 8 milyon dollar verəcək.

# Cüdoçularımız Avropa kubokunun qalibi oldular



***Almaniyanın Sarbrüker şəhərində cüdo üzrə Avropa Kuboku yarışına yekun vurulub.***

Millimiz Avropa Kuboku yarışını 2 qızıl, 1 gümüş və 3 bürünc medalla başa vurub.

90 kq çəki dərəcəsində ölkəmizi təmsil edən Məmmədəli Mehdiyev bütün rəqiblərinə qalib gələrək fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. +100 kq çəki dərəcəsində isə Azərbaycan finalı yaşanıb. Belə ki, həlledici görüşdə Uşanqi Kokauri və Şahin Qəhrəmanov üz-üzə gəlib. Kokauri qızıl, Qəhrəmoanov isə gümüş medal əldə edib.

Qeyd edək ki, 26 ölkədən 387 (269 kişi, 118 qadın) cüdoçunun qüvvəsini sınadığı qitə turnirində Azərbaycan millisi 10 cüdoçu ilə təmsil olunub.

# Yeniyetmə güləşçilərimiz Xorvatiyadan səkkiz medalla qayıdıblar

***Xorvatiyanın paytaxtı Zaqrebdə güləş üzrə yeniyetmələrin dünya çempionatı keçirilib. Çempionatda iştirak edən yığma komandamızın üzvləri ümumilikdə 2 qızıl, 2 gümüş və 4 bürünc medala sahib olub.***




İlk olaraq sərbəst güləşçilərin mübarizəsi ilə başlayan çempionatda yığmamız məşqçi Vahid Məmmədovun rəhbərliyi altında mübarizə aparıb, 2 qızıl və 1 bürünc medalla komanda hesabında 4-cü olub. Əlihəsən Əmirli (48 kq) və Turan Bayramov (65 kq) qızıl, Əbülfəz Nəsirov (55 kq) isə bürünc medal qazanıb. Turan Bayramov həm də ötən ay keçirilən Avropa çempionatının qalibi olaraq yeniyetmələrin III Olimpiya Oyunlarına vəsiqə qazanıb.

Məşqçilər Rövşən Umudov və Həsrət Məmmədyarovun rəhbərliyi altında beş idmançı ilə dünya çempionatına qatılan yeniyetmə qızlarımız çempionatı 1 gümüş medalla başa vurublar. Turnirdə 43 kiloqram çəki dərəcəsində mübarizə aparan Şahanə Nəzərova yalnız final görüşündə məğlub olaraq çempionatı ikinci sırada tamamlayıb.

Böyük məşqçi Bəhram Mürvətovun rəhbərliyi altında 7 güləşçi ilə yarışa qatılan yunan-Roma yığmamız 1 gümüş və 3 bürünc medal qazanıb. Yalnız final görüşündə uduzan Sərxan Məmmədov (110 kq) gümüş medala yiyələnib. Bürünc medalları isə yığmamıza Qurban Qurbanov (45 kq), Həsrət Cəfərov (51 kq) və Adəm Hacızadə (60 kq) qazandırıblar.

Görüşlərin idarə edilməsində ölkəmizi beynəlxalq dərəcəli hakim Əbdül Nuriyev təmsil edib.

# Ağır atletika idman növündə çəki dərəcələri dəyişdirilib

***Daşkənddə Beynəlxalq Ağır Atletika Federasiyasının (IWF) növbəti konqresi keçirilib. Tədbirdə Azərbaycanı Azərbaycan Ağır Atletika Federasiyasının birinci vitse-prezidenti Tofiq Heydərov, baş katib Rizvan Rəsulov və Rəyasət Heyətinin üzvü Fəxri Ağayev təmsil ediblər.***




63 ölkənin nümayəndələrinin iştirak etdikləri konqresdə müzakirəyə çıxarılan əsas məsələlərdən biri mövcud çəki dərəcələrinin dəyişdirilməsi və sayının artırılması olub. IWF İcraiyyə Komitəsinin bununla bağlı qəbul və Konqresə təqdim etdiyi qərar rəsmən təsdiqlənib.

Qərara əsasən, bundan sonra kişi ağır atletlər (böyüklər və gənclər) IWF-in bayrağı altında 8 yox, 10 çəki dərəcəsində mübarizə aparacaqlar. Bunlar 55, 61, 67, 73, 81, 89, 96, 102, 109 və 109 kiloqram çəki dərəcələridir. Ancaq Olimpiya Oyunlarında bu çəki dərəcələrindən yalnız 7-si üzrə yarışlar keçiriləcək. Atletlər 2020-ci il Tokio Yay Olimpiya Oyunlarında 61, 67, 73, 81, 96, 109 kiloqram və 109 kiloqramdan yuxarı çəki dərəcələrində körpücük üzərinə çıxa biləcəklər.

Qadınlar (böyüklər və gənclər) kateqoriyasında da çəki dərəcələri dəyişdirilib. Zərif cinsin nümayəndələri 45, 49, 55, 59, 64, 71, 76, 81, 87 kiloqram və 87 kiloqramdan yuxarı çəki dərəcələrində mübarizə aparacaqlar. Olimpiya Oyunlarında bunlardan yalnız 49, 55, 59, 64, 76, 87 kiloqram və 87 kiloqramdan yuxarı çəki dərəcələri üzrə yarışlar keçiriləcək.

Yeniyetmə atletlərdə yeni çəki dərəcələri oğlanlarda 49, 55, 61, 67, 73, 81, 89, 96, 102 və 102 kiloqramdan yuxarı; qızlarda 40, 45, 49, 55, 59, 64, 71, 76, 81 və 81 kiloqramdan yuxarıdır.

Bununla yanaşı, konqres 2020-ci il Tokio Olimpiya Oyunlarına lisenziya qazanılması sistemindəki yenilikləri də təsdiqləyib. Təsnifat mərhələsində əvvəllər mövcud olan qayda ləğv edilib. Yeni qərara əsasən, atletlər Olimpiya Oyunlarına lisenziyanı komanda yox, fərdi şəkildə əldə etməli olacaqlar. Təsnifat yarışları üç mərhələli olmaqla 2018-ci il noyabrın 1-dən 2020-ci il aprelin 30-na qədər davam edəcək. Lisenziya qazanmaq istəyən atletlər təsnifat dövründə Olimpiya Oyunları üçün təsdiq olunmuş çəki dərəcələrində ən azı 2 (iki) yarışda çıxış etməli, xallar toplamalıdırlar. İlk təsnifat yarışı noyabrın 1-10-da Türkmənistanın paytaxtı Aşqabadda keçiriləcək kişilər və qadınlar arasında dünya çempionatı olacaq.

# AZƏRBAYCAN XƏZƏR DƏNİZ GƏMİÇİLİYİ 160 İLLİYİ ƏRƏFƏSİNDƏ TƏSVİRİ İNCƏSƏNƏT MÜSABİQƏSİ KEÇİRİR

***Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi 160 illik yubileyi ərəfəsində gənc rəssamlar üçün "Gəmiçilik - 160", "Mənim Xəzərim", "Dəniz cəsurları sevir" mövzularında təsviri incəsənət (rəngkarlıq, heykəltəraşlıq, qrafika) müsabiqəsini elan edir.***

*QAYDALAR*

**Təşkilatçı**

Müsabiqə 2018-ci ildə 160 illik yubileyini qeyd edəcək Respublikanın qocaman müəssisəsi olan Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi tərəfindən (bundan sonra - Təşkilatçı) təşkil olunur.

**Məqsəd**

Xəzər dənizçilərinin çətin və spesifik əməyi ilə geniş auditoriyanı yaxından tanış etmək;

Xəzəri əlverişli su yolu, zəngin təbii sərvət qaynağı, gözəl mənzərələr məkanı kimi tərənnüm etmək və qiymətli ekosistem kimi qorunmasının vacibliyini ön plana çəkmək;

Rəssamları dənizçilərin fədakar əməyi ilə dərindən tanış olmağa stimullaşdırmaq;

Gənc və istedadlı rəssamları dəstəkləmək və onların işi ilə geniş auditoriyanı yaxından tanış etdirməkdir.

**Müsabiqədə iştirak etmək üçün şərtlər**

İştirakçılar üçün yaş həddi 17-dən 35-dək müəyyənləşdirilmişdir.

Müsabiqəyə təqdim edilmək üçün hazırlanmış rəsm əsəri böyük hissədə minimum 50 santimetrdən az olmamalıdır.

Müsabiqə üçün işlər avqustun 20-dək Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinə təqdim olunmalıdır.

Müsabiqə üçün əsərlərin elektron variantda fotoşəkli mütləqdir.

Müsabiqə üçün əsərlərin fotoşəkillərini çəkərkən paspartu və çərçivədən istifadə edilməlidir.

İştirakçı özü haqda qısa məlumatı və əlaqə telefonunu göstərməklə əsərlərin fotolarını aşağıda göstərilən email ünvana yollamalıdır.

Email: resmmusabiqesi@acsc.az

**Müsabiqənin keçirilmə müddəti**

Əsərlərin qəbulu 20 may 2018-ci ildən başlayaraq 20 avqust 2018-ci il tarixinədək davam edəcək.

**Tələblər**

Əsərlərin fotoşəkilləri maksimum dərəcədə keyfiyyətli və JPG formatında olmalıdır.

İştirakçı müsabiqəyə yalnız bir mövzu üzrə və müvafiq olaraq bir ədəd iş təqdim edə bilər.

Əsərlərdə müəllifin imzası olmalıdır.

**Seçim prossesi**

Birinci mərhələdə təqdim olunan əsərlər eyni vaxtda olmaqla Facebook (Azerbaijan Caspian Shipping Company / Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi , link- https://www.facebook.com/Azerbaijan.Caspian.Shipping.Company/ ) səhifəsində sentyabrın 1-dən 15-nə kimi açıq səsverməyə çıxarılacaq.

İkinci mərhələdə müsabiqədə iştirak edəcək əsərlər Azərbaycan Respublikasının Rəssamlıq Akademiyası, Azərbaycan Rəssamlar İttifaqı, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti, Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin nümayəndələrindən ibarət münsiflər heyətinə təqdim olunacaq və onlar tərəfindən qiymətləndiriləcək.

Ümumi müsabiqənin qalibləri Facebook səsvermısinin nəticələri və münsiflərin rəyi ilə müəyyən olunacaq.

Şəffaflığın təmin edilməsi üçün əsərlər səsverməyə kodlaşdırılmış formada çıxarılacaq.

**Müəlliflik hüququ**

Əsərlərə görə hüquq yalnız onların müəlliflərinə məxsusdur. Təşkilatçı isə əsərlərin bukletini çap etmək, onları müxtəlif tədbirlərdə sərgiləmək, fotoşəkillərini tanıtım materiallarında, eyni zamanda sosial şəbəkələrdə istifadə etmək hüququna malikdir. Təşkilatçı təqdim olunan rəsm əsərlərinin fotoşəkillərini təkrar istifadə etmək və sürətini çıxartmaq hüququnu özündə saxlayır.

**Əsərlərin təqdimatı**

Müsabiqəyə təqdim olunan əsərlərin sərgisi təşkil olunacaq.

Təqdim olunan əsərlərdən ibarət kataloq çap olunacaq.

Sərgidə qaliblər mükafatlandırılacaq.

**Mükafatlandırılma**

*"Rəngkarlıq" nominasiyası üzrə:*
1-ci yer - 2000 AZN
2-ci yer - 1000AZN
3-cü yer - 500 AZN




*Həvəsləndirici yerlər*
4-cü yer - 200 AZN
5-ci yer - 100 AZN

*"Heykəltəraşlıq" nominasiyası üzrə:*
1-ci yer - 2000 AZN
2-ci yer - 1000AZN
3-cü yer -500 AZN

*Həvəsləndirici yerlər*
4-cü yer - 200 AZN
5-ci yer - 100 AZN

**"Qrafika" nominasiyası üzrə:**
1-ci yer - 2000 AZN
2-ci yer - 1000AZN
3-cü yer - 500 AZN

*Həvəsləndirici yerlər*
4-cü yer - 200 AZN
5-ci yer - 100 AZN

**Son müddəa**

Müsabiqədə iştirakın özü avtomatik olaraq müəllifin bu QAYDALAR-ın müddəaları ilə tam razılaşdığını bildirir.

**Əlaqə**
Tel: (+99412) 404 37 00
(daxili: 12 46, 12 45)
Ünvan: AZ 1029, Azərbaycan Respublikası,
Bakı şəhəri, Heydər Əliyev pr-ti,152
Email: resmmusabiqesi@acsc.az

# A L L A H   R Ə H M Ə T   E L Ə S İ N

Azərbaycan Dövlət Dəniz Akademiyasının rəhbərliyi və Həmkarlar İttifaqı Komitəsi Personalın idarəedilməsi və əmək haqqı şöbəsinin müdiri Təranə Süleymanovaya, anası

**FİRƏNGİZ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hünlə başsağlığı verirlər.

---

"Dəniz" qəzeti redaksiyasının kollektivi "Dəniz" qəzetinin sabiq baş redaktor müavini

**VAQİF SƏTTAROVUN**

vaxtsız vəfatından kədərləndiyini bildirir, ailəsinə və qohumlarına dərin hüznlə başsağlığı verir.

---

Dəniz Nəqliyyatı Donanmasının rəhbərliyi və Həmkarlar İttifaqı Komitəsi "Dəniz" qəzetinin sabiq baş redaktor müavini

**VAQİF SƏTTAROVUN**

vaxtsız vəfatından kədərləndiklərini bildirir, ailəsinə və qohumlarına dərin hüznlə başsağlığı verirlər.

---

"Zığ" Gəmi Təmiri və Tikintisi Zavodunun rəhbərliyi və Həmkarlar İttifaqı Komitəsi "Dəniz" qəzetinin sabiq baş redaktor müavini

**VAQİF SƏTTAROVUN**

vaxtsız vəfatından kədərləndiklərini bildirir, ailəsinə və qohumlarına dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Rasif İman oğlu
TAHİROV

Ünvanımız:
AZ1029, Bakı şəhəri,
Heydər Əliyev prospekti, 152
TELEFONLARIMIZ:
Baş redaktor
(050) 670-33-76;
30-67 (daxili)

Qəzetin təsisçisi:
"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi"
Qapalı Səhmdar Cəmiyyəti

Qəzet "Dəniz" qəzetinin kompyuter mərkəzində yığılmış, səhifələnmiş və "Azərbaycan" nəşriyyatında çap olunmuşdur

Şəhadətnamə: 275
Tiraj: 2000
Sifariş: 2179